# FƏRQLİLİK VƏ BİRGƏYAŞAYIŞ

## Milli ictimai birliyin kök salması ilə bağlı tədqiqatlar

**Həsən Səffar**

Bakı - 2021

Kitabın nəşrinə
Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən rəy (28 dekabr 2020-ci il tarixli DK-774/H saylı məktub) verilmişdir.

**Tərcümə etdi:** Zaur Sadıqov

**Korrektor:** Zəhra Sadiq

Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2021, 64 səh.

© R.Aslanlı, 2021.

# Ön söz

Bu kitab fərqlilik və birgəyaşayış mövzusundan bəhs edir. Bu, xüsusən də dialoq, düşüncə və birgəyaşayışa çağırışla əlaqəli olduğu üçün əhəmiyyətli bir mövzudur və onu obyektiv və məntiqi bir çərçivədə təqdim edir, eləcə də kitabı oxuyan şəxsə müəllifin uğurlu bir səy göstərdiyini, bu işə düşüncəsinin cövhərini və təcrübələrinin özəyini qoyduğunu, bu xüsusda rəngarəng bilgilər topladığını, sonra bunları incə bir üslubda və heyrətamiz bir ardıcıllıqla ifadə etdiyini hiss etdirir.

Bu, möhtəşəm mövzuya və gözəl təqdimata sahib olan bir kitabdır. Sanki oxucuya müəlliflə eyni şəkildə düşündüyünü hiss etdirir. Oxucunu kitabın qaldırdığı vacib məsələlərin nümunələrini nəzərdən keçirən gözəl bir təqdimata aparır və sanki ona bu xüsusda öz düşüncələrini oxuduğunu hiss etdirir. Bu kitab yeni həqiqətlərin elə bir məcmusudur ki, hər fəsli ayrıca bir kitab olmağa layiqdir.

**Dr. Mühəmməd Əbdu Yəmani**

# Müqəddimə

İnkişaf etməkdə olan ölkələri inkişaf etmiş qabaqcıl ölkələrdən böyük bir uçurum ayırır. Zaman və vaxt amili bu uçurumun daha da dərinləşməsində mənfi rol oynayır. Belə ki, inkişaf etmiş qabaqcıl ölkələr ildən ilə daha da zənginləşməkdə, inkişaf etməmiş ölkələr isə kasıblaşmaqdadır. Məsələn, inkişaf etməkdə olan ölkələrdə dünya əhalisinin ¾ hissəsi (75 %-i) yaşasa da onlar dünya gəlirlərinin ancaq 16 % - inə sahibdirlər. Halbu ki, yer üzü əhalisinin cəmi 20 %- ni təşkil edən inkişaf etmiş ölkələrin sakinləri qlobal gəlirlərin 85 % -nə yiyələnirlər. Hətta neft hasil edən zəngin üçüncü dünya ölkələrində də əhalinin artımı ilə ümumdaxili məhsul arasında balans pozulmaqdadır. Məsələn, Körfəz Əməkdaşlıq Şurası ölkələrində əhalinin artımı 1990-1995-ci illərdə 23%-ə qədər yüksəlsə də, ümumdaxili məhsulun artımı 19 %-i keçməmişdir.

Coğrafi baxımdan üçüncü dünya ölkələrinə aid olan, təcavüzkar varlığı ilə ərəb bölgəsinin qəlbinə yerləşdirilmiş İsrail əslində inkişaf etmiş böyük güclərin davamıdır və bu acı gerçəkliyin bariz nüməsi kimi onunla qonşu ərəb ölkələri arasındakı uyğunsuzluğu əks etdirir. Belə ki, İsrailin təxmini əhalisi 5,4 milyondur, ancaq ölkənin milli gəlirləri 1994-cü ildə 78,1 milyarda çatmışdır. Bunun əksinə, Misir, İordaniya, Suriya, Livan və Fələstin əhalisinin sayı 83 milyona çatdığı halda bu ölkələrin hamısının birgə gəlirləri İsrailin gəlirlərinə çatmır. Halbu ki, bunlar bölgənin qədim, köklü ölkələri və cəmiyyətləri, İsrail isə ötən 50 ilin ərzində burada qondarılmış bir ölkədir.

İnkişaf etməkdə olan ölkələr bu disbalans vəziyyətlə üz-üzə qalmağa çoxlu borclar və kreditlər vasitəsilə sürüklənirlər, hansı ki, bu onların yükünü daha da ağırlaşdırır və gələcəyini borc verən dövlətlərin iradəsindən asılı duruma salır. Dünya bankının hesabatında (dünya borcları 1993-1994) bildirilir ki, təkcə ərəb ölkələrinə aid borcların dəyəri 1992-ci ilin sonunda 189 milyard dollara yüksəlmişdir. Bu borcların xidmətinin dəyəri isə 17,7 milyarddan çox olmuşdur. Təkcə bunu bilmək kifayətdir ki, ərəb ölkələrindən sadəcə biri olan Misirin xarici borcu 31,18 milyard dollara çatır və Misirin dövlət naziri Yusif Butros Qali bu borcların 2043-cü ildə bitəcəyini hesab etdiyini bildirib.

Bu inkişaf etməkdə olan ökələrin xalqlarının tədris, səhiyyə və iş sahələrindəki həyati problemlərdən əziyyət çəkmələrinə, layiqli yaşamağın tələbatlarını təmin etməkdə çətinliklərlə üzləşmələrinə gəlincə, bu haqda mübaliğəyə ehtiyac duymadan istənilən qədər danışmaq olar.

Birləşmiş Millətlər Təşkilatının Sosial İnkişaf İnstitutunun1995-ci ilin yanvarında verdiyi bir hesabatda deyilir:

*"İnkişaf etməkdə olan ölkələrdə əhalinin demək olar ki, üçdə biri mütləq yoxsulluq şəraitində yaşayır.*

*Qidalanma, inkişaf etməkdə olan ölkələrdə üç uşaqdan birinin fiziki və zehni inkişafına mane olur.*

*İnkişaf etməkdə olan ölkələrdə təxminən 1,3 milyard insan hətta minimum həddə yararlı olan içməli sudan məhrumdur.*

*1992-ci ildə 5 yaşına çatmamış 6 milyon uşaq pinevmaniya (ağciyər iltihabı) və ya ishaldan vəfat etmişdir".*

Beynəlxalq əmək təşkilatı (ILO) hazırda 15 yaşına çatmamış təxminən 100 milyon uşağın ehtiyac üzündən işlədiyini və təhsildən məhrum olduğunu bildirir. Onların 95%-i inkişaf etməkdə olan ölkələrdəndir. Bu uşaqların yarısı Asiyada olsa da, ən çox hissəsi - hər üç uşaqdan biri Afrikadadır.

Bu cəmiyyətlər nə zaman və necə öz gerçəkliklərini yaxşılaşdıra və bu faciəvi vəziyyəti geridə qoya biləcəklər?

Bizi belə bir inkişaf və tərəqqi yoluna çıxaracaq ilk addım birgə yaşamaq iradəsinə sahib olmaq və onu gerçəkləşdirmək iqtidarında olmaqdır. Əgər biz bir-birimizi qəbul etsək, hər birimiz digərinə hörmət etsə, onun tərəfdaşlığını və rolunu təsdiqləsə, o zaman dərin gerilik vəziyyətini geridə qoymaq və sivilizasiyanın geniş üfüqünə doğru irəliləmək üçün birgə çalışa bilərik. Bizimlə sivilizasiya və tərəqqi arasındakı məsafə çox uzaqdır. Bu uzun yolun bir hissəsini qət edə bilməyimiz üçün maksimum səy göstərməyə, bütün enerji və imkanları səfərbər etməyə ehtiyac var.

İnkişaf, hətta sülh və sabitliyin bərqərar olduğu ölkələr üçün belə açıq problemdir. Eyni zamanda sənaye ölkələrilə inkişaf etmiş ölkələrin özləri arasında da kəskin qlobal rəqabət var. Hazırda Amerika və Yaponiyanın timsalında bunu aydın görmək olar.

Biz onların getdiyi sürətlə hərəkət etsək, aramızda bizi ayıran böyük bir məsafə olduğu üçün onlara çata bilmərik. Təbii ki, sən, səndən öncə 1000 km məsafə qət etmiş olan və saatda 120 km sürətlə hərəkət edən adama eyni sürətlə hərəkət etməklə heç vaxt çata bilməyəcəksən, mütləq sürəti ikiqat artırmalısan ki, səndən öncə qət etdiyi məsafə fərqini aradan qadıra biləsən. Lakin təəssüf ki, daxili ixtilaflar və çəkişmələrin gerçəkliyi inkişaf və köklü dəyişiklik cəhdlərinə mane olmaqdadır. Digər insan cəmiyyətləri kimi bizim xalqlarımız da dini, milli və siyasi

baxımdan müxtəlif yönümlü fərqliliklərə və çoxsaylı mənsubiyyətlərə sahibdirlər. Amma bizim problemimiz ondadır ki, hər bir istiqamət və mənsubuyyət daşıyıcısı digərinin varlığına görə öz çevrəsində narahatlıq yaşayır. Aramızda bir-birimizə qarşı şəkk-şübhə atmosferi hökm sürür ki, bu da təbii olaraq hər bir tərəfi digərindən ehtiyatlanmağa, onunla qarşıdurmaya hazırlaşmağa və onu zəiflətmək istiqamətində çalışmağa vadar edir. Bütün bunlar isə nəinki bizim ciddi və səmimi əməkdaşlıq əlaqələri qurmağımıza mane olur, üstəlik bizim gücümüzü qurmaq deyil, dağıtmaq, hər şeyi bərbad etmək səmtinə yönəldir. Bizim başımız daxili çəkişmələrimizə qarışıb, imkanlarımızın çoxu bu çəkişmələrə sərf olunur. Təbii olaraq da düşmənlərimiz bu acı reallığımızdan yararlanıb cəmiyyətlərimizdəki ixtilaf və parçalanma hallarının daha da artmasına təşviq edir ki, onların hegemonluğuna boyun əyməyə davam edək və bununla da onlar xilaskar İslam qiyamçısının əsarət zəncirindən qurtulmayacağına əmin olsunlar. Dünyadakı hakim qüvvələr özümüzü təmin etməyi gerçəkləşdirəcək inkişaf və tərəqqi yolunda irəliləməyimizi istəmirlər. Əksinə istədikləri, bizim onların iqtisadiyyatı üçün çalışaraq hər zaman onlardan asılı olmağımızdır.

Bəs biz bu saxta, xroniki fikirayrılıqlarımızla bağlı çəkişmələrə davam etdikcə, inkişaf meydanında əsl mübarizəyə nə vaxt atılacağıq? Uydurma daxili düşmənçiliklərimizə qapıldığımız müddətcə gerçək düşmənlərimizin qarşısına nə vaxt çıxacağıq? Bu acı gerçəkliyə misal olaraq təkcə onu bilməyimiz kifayətdir ki, indiyə qədər ərəblərlə İsrail arasında baş vermiş bütün müharibələrdə şəhid olanların sayı ümumilikdə təxminən 150 min nəfər, təkcə üç ərəb ölkəsində - İraq, Livan və Sudanda, vətəndaş müharibələrində qətlə yetirilənlərin təxmini sayı isə yarım milyon bu ölkələrin yerli vətəndaşlarıdır. Hələ bu rəqəmlər İraq və Sudandakı son hadislərdən öncəyə aiddir. Eyni şey maliyyə və digər maddi qaynaqlara da şamil olur. Belə ki, bu qaynaqlardan ərəb vətəndaş müharibələrində sərf olunan maliyyə vəsaitləri ərəb-İsrail savaşlarında sərf olunanları qat-qat üstələyir. Livan təxminən 16 il davam edən belə bir dağıdıcı vətəndaş müharibəsindən əziyyət çəkdi. Nəticədə ticarət, bankıçılıq və turizmdəki xüsusi mövqeyini itirdi, iqtisadiyyatı tamamilə çökdü. Bu amansız müharibənin qurbanlarının sayı 225 min nəfərə çatdı, bir milyon insan isə qaçqın düşdü. Nəzərə almaq lazımdır ki, vətəndaş müharibəsi başlayanda Livan xalqının sayı 2,5 milyondan çox deyildi.

Türkiyədə də kürdlərlə Türkiyə dövləti arasında şiddətli müharibə gedir. Bu günə qədər 20 minə yaxın insanın ölümü ilə nəticələnən bu müharibə Türkiyə dövlət büdcəsinə hər il 10 milyard dollara başa gəlir.

Digər tərəfdə Əfqanıstanı da mücahid qrupları arasında gedən amansız daxili müharibə bürüməkdədir, hansı ki, qurbanlarının sayı artıq 45 min ölünü keçib.

Somali də dağıdıcı vətəndaş müharibəsi yaşamaqdadır. Bu müharibə nəticəsində də dövlət qurumları dağılmış, xalq və ölkə parçalanmış, aclıq, yoxsulluq, ölümcül xəstəliklər və epidemiyalar hökm sürməkdədir.

Pakistandakı müsəlman xalq sünnülərlə şiələr arasında məzhəb qarşıdurmasının acı bir atmosferində yaşayır. Hər iki tərəf bir-birinin məscidlərinə hücum edir və ibadət edənlərə atəş açır. Eləcə də tərəflər bir-birinin elm xadimləri və siyasi şəxsiyyətlərinə sui-qəsdlər edirlər. Bu fitnə təkcə bir ilin içində (1986) sünnü və şiələrin sıralarından dini və sosial sahədə fəal olan 70-dən çox şəxsiyyətin aradan götürülməsilə nəticələnmişdir.

Bu daxili çəkişmələrin yaraları hələ də İslam ümmətimizin bədəninin bir neçə yerindən və müxtəlif dərəcələrdə qan axıtmağa davam edir. Bu isə, başqaları ilə əlaqələri ləğv etmək, onlara qarşı laqeydlik göstərmək, onları özündən uzaqlaşdırmaq düşüncəsi əvəzinə, onlarla birlikdə yaşamaq və onların tərəfdaşlığını qəbul etmək prinsipi üzərində anlaşmanın zəruriliyini təsdiqləyir. Bu araşdırmanın səhifələri də, fərqliliyin Uca Yaradanın hikmətilə istədiyi qlobal və sosial bir hadisə olduğuna əsaslanaraq, birlikdə yaşamaq prinsipini təbliğ etmək üçün təvazökar bir töhfədir. Dini anlayışlar və təlimlər də bizi müxtəliflik və fərqlilik gerçəkliyilə müsbət yöndə davranmağa yönləndirir. Şanlı İslam tariximizdə, layiqli birgə yaşamaq metodunu tətbiq etmək üçün ilham ala və nümunə götürə biləcəyimiz mükəmməl səhifələrə, parlaq misallara rast gəlirik. Onu da qeyd edim ki, bu araşdırmanın əsası 04.01.1416 h.q. (03.06.1995 m.) tarixində Qətif şəhərində söylədiyim mühazirə ilə qoyulmuşdur. Möhtərəm qardaşım Zakir Ali Cübeyl (Allah əziyyətinin əvəzini versin ona) həmin mühazirənin yazılı tədqiqat əsəri halına salınmasına təşviq və kömək etməkdə mühüm rol oynadı. Belə ki, Allah-təala tərəfindən qəbul olunması və müvəffəqiyyət verilməsi ümidilə mövzunu daha geniş və əsaslı şəkildə yenidən işləyib hazırladım.

# Birinci fəsil:

# FƏRQLİLİK QLOBAL VƏ SOSİAL TƏZAHÜRDÜR

- **Giriş**
- **(1) İrqi və milli fərqlilik**
- **(2) Dil və danışıq fərqliliyi**
- **(3) Dini fərqlilik**

# Giriş

Qurani-kərimdə bir çox ayələr bəşər həyatındakı fərqliliklər və müxtəlifliklərdən bəhs edir. İnsanlar ümumi insanlıqlarında və ortaq ibtidai xüsusiyyətlərində bərabər olsalar da, əslində onlar bəşər mühitində bu və ya digər şəkildə fərqlənirlər. Quranın bəşər həyatında bəhs etdiyi həmin fərqlilik məxluqatın və varlıq aləminin növlərini əhatə edən qlobal təzahürün sadəcə bir hissəsidir. Kosmik qalaktikalar və onların planetləri isə çox və müxtəlifdir. O cümlədən, bitki aləmi də, bitdiyi torpağın və suvarıldığı suyun eyni olmasına baxmayaraq, özündə fərqli rənglər və formalar ehtiva edir. Allah-təala bu xüsusda buyurur:

" و في الارض قطع متجاورات و جنات من اعناب و زرع و نخيل صنوان و غير صنوان يسقى بماء واحد و نفضل بعضها على بعض في الاكل ان في ذلك لايات لقوم يعقلون"

***" Yer üzündə bir-birinə yaxın (qonşu) qitələr (münbit, qeyri-münbit, şirin-şoran, dağlıq- aran yerlər, müxtəlif iqlimli torpaq sahələri), eyni su ilə suvarılan üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Halbuki Biz yemək baxımından onların birini digərindən üstün tuturuq. Şübhəsiz ki, bunda da anlayıb dərk edən insanlar üçün (Allahın qüdrətinə və vəhdaniyyətinə dəlalət edən) əlamətlər vardır".[1]***

"و النخل و الزرع مختلفا اكله و الزيتون و الرمان متشابها و غير متشابه"

***" ...Dadları müxtəlif xurmanı və taxılı, bir-birinə həm bənzəyən, həm də bənzəməyən zeytunu və narı yaradan Odur..."[2]***

Heyvanlar aləmi də bir başqa cür rəngarəng aləmdir. Yerdəki heyvanlarla göydəki quşlar heç də vahid bir nəsil deyillər, əksinə onlar çoxlu və müxtəlif nəsillərdir. Uca Rəbbimiz buna işarə edərək buyurur:

" و ما من دابة في الارض و لا طائر يطير بجناحيه الا امم امثالكم"

***" Yerdə gəzən elə bir heyvan, qanadları ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın"[3]***

Hətta mələklərin də hamısı bir səviyyədə və eyni oxşarlıqda deyil, əksinə, onların da görkəmlərində, vəzifələrində və məqamlarında fərqliliklər var. Allah-təala bu haqda buyurur:

" الحمد لله فاطر السماوات و الارض جاعل الملائكة رسلا اولي اجنحة مثنى و ثلاث ورباع يزيد في الخلق ما يشاء ان الله على كل شيء قدير"

---

[1]Ər-Rəd, 4
[2]Əl-Ənam, 141
[1]Əl-Ənam, 38

*“ Göyləri və yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri elçi edən Allaha həmd olsun! (Allah) məxluqatda istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir”.*[4]

İnsan aləminə gəlincə isə, Quran-kərim onun həyatındakı fərqliliyin bir çox yönlərindən, müxtəlif istiqamətlərdə söhbət açmışdır.

## Fərdi fərqləndirmə

Hər bir insan üçün fərdi bir fərqlilik növü vardır. Məsələn, onun zahiri görünüşü və səsi onu başqalarından fərqləndirir. Buna görə də beyinlərdə hər bir fərdin məhz özünə məxsus görünüşü və səsi formalaşır və elə bu səbəbdən də fotoşəkilə və səs yazısına şəxsiyyətə sübut kimi etimad olunur. Üz cizgilərində və ya səs tonunda hər hansı bir oxşarlığa rast gəlindikdə bu, nadir bir məsələ kimi göstərilir. Ayrıca, bu oxşarlığı da daha diqqətli nəzərdən keçirməklə aradan qaldırmaq mümkündür. Əl barmaqlarının ucundakı cizgilər isə insanlar arasındakı incə və dəqiq bir fərqlilik olaraq qəbul olunmuşdur. Belə ki, aralarındakı qohumluq dərəcəsindən asılı olmayaraq, hətta eyni gendən olsalar belə, heç bir insanın baş barmağı və ondakı cizgilər başqalarınınkı ilə eyni deyildir. Milyadlarla insanın hər birinin bu fərqli sahədə özünə məxsus xüsusiyyəti vardır. Məhz buna əsasən də insanın barmaq izləri onun şəxsiyyətini sübut edən açıq-aydın bir dəlil kimi götürülür. Bəlkə də Uca Allahın: *“Bəli, Biz onun barmaqlarını da (barmaqlarının uclarını da) düzəltməyə qadirik!”*[5] – deyə buyurduğu ayə elmin son dövrlərdə bu sahədə isbat etdiyi bu elmi həqiqətə ondan əvvəl işarə etməkdədir. Artıq bizim əlimizdə cinayət məcəlləsində istifadə olunan, eləcə də təhlükəsizlik orqanlarının cinayətkarlıqla mübarizədə və cinayətkarların tanınmasında etibar etdiyi “barmaq izləri elmi” adlanan müstəqil bir elm mövcuddur.

*“Barmağımızın ucundakı izlər biz hələ ana bətnində dölün ilkin mərhələlərində olarkən yaranmağa başlayır və təxminən 4 ayın ərzində yekun şəklini alır, öz də bu formalaşma elmə məlum olmayan bir şəkildə baş verir.*

[4] Fatir 1

[5] Əl-Qiyamə, 4

*Bir insanın barmaq izlərilə başqa bir insanın barmaq izləri arasında oxşarlıq tapmaq mümkün deyil və 17 milyard insanın barmaq izləri arasında oxşarlığın olması ehtimalı da yoxdur.*

*1883-cü ilə qədər barmaq izi məlum deyidi.*

*Bir insanın barmaq izlərinin başqa birininkinə, hətta əkiz olsalar belə, bənzəməsi ehtimalı varmı? Dünya səviyyəsində hər gün 80 min barmaq izi arasında müqayisə aparılır, hətta, əkizlər arasında da heç bir bənzərliyə rast gəlinməyib. Bu, tədqiqat laboratoriyalarının sübut etdiyi nəticədir. Həmçinin riyazi nəzəriyyələr də bu ehtimalın 17 milyard insan arasında olmadığını sübuta yetirmişdir".*[6]

## Elm və bilik səviyyəsində fərqlilik

İnsanlar arasında zəka və ağılın səviyyəsi fərqlənir, hətta bu fərqliliyin izlənməsi və müxtəlif dərəcələrinin müəyyən olunması üçün bir sıra ölçülər və standartlar da meydana çıxmışdır. Eləcə də elm və biliyə qarşı rəğbət də bir insandan digərinə fərqlənir və nəhayət, insanın yaşadığı mühit və şəraitin də elm və bilik əldə etmək fürsətinə təsiri vardır.

Bütün bu qeyd olunanlardan belə nəticə hasil olur ki, insanların elm və bilik səviyyəsi fərqlənir. Allah-təala buna işarə edərək buyurur:

**"نرفع درجاتٍ من نشاء و فوق كل ذي علمٍ عليم"**

***"Biz istədiyimiz kimsəni dərəcələrlə yüksəldərik. Hər biləndən üstün bir bilən də vardır!"***[7]

## İqtisadi vəziyyətin fərqliliyi

İnsanlar həmçinin maddi dolanışıqlarında və iqtisadi cəhətdən də fərqli olurlar. Zənginlər və yoxsullar, həm də onların öz aralarında müxtəlif dərəcələr vardır. Allah-təala bu xüsusda buyurur:

**"نحن قسمنا بينهم معيشتهم في الحياة الدنيا و رفعنا بعضهم فوق بعض درجاتٍ ليتخذ بعضهم بعضا سخريا"**

***"Dünyada onların dolanacaqlarını (keçinəcəklərini) öz aralarında biz bölüşdürdük. Bir-birlərinə iş gördürsünlər deyə, bəzilərinin dərəcələrini digərlərindən üstün etdik".***[8]

---

[6] Əhməd Behcət, "barmaq izləri", "Həyat" qəzeti, sayı: 2014, 24\8, 1416 h.q. səh. 20

[7] Yusuf, 76

[8] Zuxruf, 32

İnsanlar arasında məhz istedadların, qabiliyyətlərin və həvəslərin fərqliliyi onlara bir-birlərinə ehtiyaclı olduqlarını hiss etdirir. Əks halda, əgər işçinin pula ehtiyacı olmasa, onu pul sahibinin mənfəəti üçün əmək sərf etməyə nə vadar edə bilər? Eləcə də pul sahibi peşəkar texniki təcrübəyə ehtiyac duyduğu üçün işçi axtarmalı olur və həyatın digər sahələrində də eynilə belədir. İnsanlar istedadlar, qabiliyyətlət və istəklər baxımından bir-birini təkrar edən nüsxələr deyil, əksinə, fərqlidirlər ki, bu da onları bir-birlərilə münasibət qurmağa, iş görməyə, habelə ümumi fayda və həyatın hərəkətinin inkişafı üçün bir-birlərindən istifadə etməyə sövq edir. Bu bərabərsizlik isə yaşam səviyyəsinin fərqlənməsi və onun standartlarının müxtəlif olması ilə nəticələnir.

## İrqi və milli fərqlilik

İnsanların mənşəyi, Allah-təalanın: ***“Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!”***[9] – deyə buyurduğu kimi, bir kişi və bir qadın– Adəm və Həvva olsa da, onların artımının davam etməsi və yer üzündə yaşayışlarının genişlənməsi zaman keçdikcə onların fiziki inkişafının təzahürlərini və formalarını yaşadıqları təbii mühitin şərtlərinə uyğunlaşdırdı. İnsan toplumlarının fərqli təbii mühit və atmosferdə yaşamaları bu toplumlar arasında görünüş və forma baxımından fərqliliklərin ortaya çıxmasına səbəb oldu. Bu, Qobinonun[10] irqi ayrı seçkilik yaradan nəzəriyyələri müqabilində, insanlar arasında çoxlu irqlərin olmasını izah edən ən çox üstünlük verilən nəzəriyyədir. Belə ki, Qərb antropoloqları özləri də Qobinonun nəzəriyyələrini təkzib etmiş və bu irqi fərqliliyin bir irqin və ya bir xalqın mədəni səviyyədə digərindən üstün olması baxımından heç bir əhəmiyyət daşımadığını sübut etmişlər. Əslində məsələ dünyanın zəif ölkələrini və xalqlarını onların sivilizasiyadan geri qalmalarının səbəbi olan bu irqi aşağılığın taleyinə inandırmaq istəyindən başqa bir şey deyildir. Onlar, Allah istəməyincə, bu vəziyyətdə qalmalı və insani və mədəni mənliyilə inkişaf etmiş ölkələrin sırasına yüksəlməyə çalışmamalıdırlar.

---

[9] ən-Nisa, 1

[10] Cozef Artur de Qobino (Joseph Artur de Gobineau) , irqçilik nəzəriyyələrinin sahibi olmuş fransız yazıcı, şair və diplomat (müt.).

Fransız mütəfəkkir sosial antropologiya professoru Dr. Klod Levi Strauss deyir: *"Lakin irqçilik nəzəriyyəsinin tarixi də həmçinin bu sahədəki tədqiqatların dəfələrlə təkrar-təkrar üzləşdiyi uğursuzluğun tarixidir. Məlum oldu ki, irqi fərqləri müəyyənləşdirmək üçün ardıcıl olaraq göstərilən bütün xüsusiyyətlər, bəzən səbəbləri bizdən gizli qalsa da, adaptasiya prosesilə tək-tək əlaqəlidir. Bunlardan məsələn,kəllə sümüyünün formasını göstərmək olar, hansı ki, onun, harda olursa olsun, kürəyəbənzər şəklə meyl etdiyini bilirik. Bu fərqlərdən biri də həmçinin dərinin rəngləridir. Hansı ki, mülayim iqlimli ərazilərin insanlarında bu, günəş şualarının çatışmazlığını kompensasiya etmək və eləcə də bədənin rəxitlik xəstəliyinə qarşı müqavimətini artırmaq üçün açıq rəngə meyl edir. Sonra araşdırma qısa müddətdə qan qruplarına yönəldi, lakin tezliklə anlamağa başladılar ki, öz növbəsində bu da uyğunlaşmanın nəticəsindən kənar bir şey deyildir. Qan qruplarındakı fərqliliyin səbəbi qida faktoru ilə də əlaqəli ola bilər, daşıyıcılarının çiçək və vəba kimi müəyyən xəstəliklərə qarşı fərqli həssaslığından da qaynaqlana bilər. Qandakı Serum zülallarında da eynilə belə ola bilər".*[11]

## Dil və danışıq fərqliliyi

İnsan həyatında ən bariz fərqlilik növlərindən biri də dillərin müxtəlifliyi və çoxluğudur. Alimlər bildirirlər ki, hazırda dünyada 3 minə yaxın danışıq dili mövcuddur və ləhcələr bir dilin yerli formaları olduğu üçün bu saya daxil deyildir. Bir çox dillərdə sadəcə bir neçə yüz və ya min insandan ibarət kiçik qruplar danışır. O cümlədən, hər birində bir milyon və ya daha çox insanın danışdığı yüzdən çox dil vardır. Bu dillər arasında hər birində 50 milyondan çox insanın danışdığı 19 dil yer alır.[12]

Ən geniş yayılmış dillərdən biri, bir milyard insanın dili olaraq, ən çox insanın istifadə etdiyi çin dilidir. Təkcə Hindistanda 850 dil və yerli ləhcə istifadə olunur.[13]

---

[11] Klod Levi Strauss, "ünsiyyət haqqında məqalələr" kitabı,, səh. 225, kitabdan seçmələri tərcümə edən dr. Həsən Qübeysi, birinci çap, Beyrut, Dar ət-tənvir mətbəəsi, 1983-cü il.

[12] Beynəlxalq Ərəb Ensiklopediyası, c. 21, səh. 119, birinci çap, ər-Riyad, 1996.

[13] Ginnesin Rekordlar Kitabı, birinci çap, Dəməşq, "Talas" tərcümə və tədqiqatlar mərkəzi, 1993-cü ilin nəşri, səh. 150.

Allah-təala insana öz daxilində baş verənləri fikir və duyğularını, danışıq və sözlə ifadə etmək qabiliyyəti vermişdir. O, bu xüsusda buyurur:

**" خلق الانسان. علمه البيان"**

***“ İnsanı yaratdı. Ona danışmağı (fikrini və duyğularını bəyan etməyi) öyrətdi”.***[14]

Heyvanlar da kollektiv yaşam tərzinə uyğun olaraq öz hisslərini ifadə etmək üçün səslərini istifadə etsələr də bu, insanın sahib olduğu dil səviyyəsinə çatmır. Dil araşdırmaları elminin tədqiqatçılarından biri deyir:

*“İnsandan qeyri heç bir canlılarda insan dilinin malik olduğu bütün xüsusiyyətlərə malik olan həqiqi bir dil yoxdur. Bəziləri bu xüsusiyyətlərin bir hissəsinə, bəziləri isə başqa spesifik xüsusiyyətlərə malikdir, lakin hamısı kənara çıxa bilmədiyi müəyyən çərçivələrdə məhdudlaşmışdır və heç birində yeni vəziyyətlərin tələb etdiyi funksiyaların yaranmasına kömək edən əsaslar yoxdur. Deməli, əsl dil insana xas olan bir təzahürdür.*[15]

*İnsanların başlanğıcı bəşəriyyətin atası Adəm, zövcəsi Həvva və onların övladları ilə təmsil olunan kiçik bir toplum olduğu üçün təbii ki, onların əvvəlcə bir dili olmuş və sonradan övladlarının çoxalması və nəsillərin bir-birindən ayrılması nəticəsində bu dil bir neçə dillərə bölünmüşdür. Bu səbəbdən də tədqiqatçılar dilləri ailələrə bölürlər. Dil ailələri bir-birilə əlaqəli olan dillər qrupudur, çünki hamısı yavaş yavaş orijinal dil adlanan bir qədim dildən yaranmışdır. Bir dildə danışanlar bir-birilə əlaqəsi, ünsiyyəti olmayan toplumlara ayrıldıqda, hər toplumun dili özünəməxsus şəkildə dəyişməyə davam edir və bir neçə əsrdən sonra bu toplumlar bir-birlərini başa düşməyəcək dərəcədə çox fərqli şəkildə danışırlar. Amma buna baxmayaraq, hər ailədəki dillər eyni orijinal dildən qaynaqlandığı üçün hələ də bir-birinə bağlı sayılır. Dillərin ailələr olması məsələsinə ilk toxunan İbn Həzm əl-Əndəlusi olmuşdur. Belə ki, o, buna işarə edərək demişdir ki, dillər də insanlar kimi ailələrdir”.*[16]

“Dilin insan həyatında necə başlamasına dair aydın və sabit bir rəy, eləcə də dilin inkişaf mərhələlərinin, bölünməsi və inkişaf etməsinin tam

---

[14] ər-Rəhman, 3,4.

[15] Dr. Nayif Xərma, “Çağdaş dilçilik tədqiqatlarına bir baxış”, “Bilik Dünyası” silsiləsi (9), Küveyt, 1978, səh. 123.

[16] Beynəlxalq Ərəb Ensiklopediyası, yuxarıda qeydə olunan mənbə, səh.123.

bir tarixi olmasa da, bütün göstəricilər kökdə bir dilin olduğundan xəbər verir. Bu göstəricilərdən biri də bütün dillər üçün ümumi təməllərin olmasıdır. Aralarında ən mühümləri Çomski, Qrinberq və Helmslaf olan bir çox dilçilər bildirmişlər ki, aralarında tarixi əlaqələrin olub-olmamasından asılı olmayaraq bütün dünya dilləri arasında ortaq fonematik, qrammatik və semantik əsaslar mövcuddur. Dünyanın bütün dillərində fərqli şeyləri, hissləri, xüsusiyyətləri, hərəkətləri və münasibətləri bildirən sözlər vardır. Bioloji baxımdan bu sözlərin bildirdiyi mənalarda əhəmiyyətli fərqlər yoxdur. Həmçinin, dillər arasında bundan əlavə başqa ümumi əsaslar da mövcuddur. Məlum olduğu kimi, hər hansı bir uşaq, ümumiyyətlə, hər hansı bir insan dünyanın istənilən dilini öyrənə bilər. Deməli, aydın olur ki, fizioloji cəhətdən insan irqləri arasında fərqlərin olmasına baxmayaraq, fərqli dillərə yiyələnmək üçün lazım olan əsas bacarıqlar eynidir”.[17]

Dilçilik tədqiqatları humanitar elmlər arasında özünün məktəbləri və müxtəlif nəzəriyyələri olan mühüm bir elm halına gəlmişdir. Dilçi alimlər tədqiqat və araşdırmada dərinə getdikcə bu sahədə onlar üçün yeni üfüqlər açılır,qarşılarına araşdırılması və kəşf olunmasına ehtiyac duyulan suallar və sirlər çıxır. Bütün bunlar sözügedən sahənin insan həyatındakı əhəmiyətinin böyüklüyünü göstərir ki, bu da öz növbəsində Yaradanın qüdrət və əzəmətinin təzahürüdür. Buna görə də Qurani-kərim dillərin çoxluğu və fərqliliyini Allahın qüdrət nişanələrindən biri hesab edərək onu göylərin və yerin yaradılması ilə yanaşı qeyd edir. Belə ki, Uca Allah bu barədə buyurur:

**"و من اياته خلق السموات و الارض و اختلاف السنتكم و الوانكم ان في ذلك لايات للعالمين"**

***“Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər (ağıl və elm sahibləri) üçün (Allahın vəhdaniyyətinə, Onun hər şeyə qadir olmasına dəlalət edən) nişanələr vardır!”***[18]

Dillərin çoxluğu və fərqliliyi xalqlar arasında fəzilət və ya üstünlük halını əks etdirmir. Öz daşıyıcılarına tərəqqi bəxş edən bir dil yoxdur, habelə öz xalqını geriliyə sürükləyən bir dilə də rast gəlinməyib. Dil, sadəcə, onu danışanların mədəni səviyyəsinə görə genişlənən və daralan bir qab və vasitədir. İmam Cəfər Sadiq (ə) Allah-təalanın tövhidi

---

[17] Dr. Nayif Xərma, yuxarıda qeyd olunmuş mənbə, səh. 168.

[18] ər-Rum, 22.

haqqında şagirdi Müfəzzəl ibn Ömərə diktə etdiyi müfəssəl hədisində buyurur:

*"Müqəddəs adlara sahib olan Allahın insana bəxş etdiyi nemətləri diqqətlə düşün, ey Müfəzzəl! Bunlardan biri danışıqdır ki, insan bununla daxilində olanları, ürəyindən keçənləri, düşündüklərini ifadə edir və başqasının içində olanları da bunun vasitəsilə başa düşür..."*

Sonra İmam (ə) buyurur: *"Həmçinin, sözlər də insanların əmələ gətirdiyi və aralarında (anlaşmaq üçün) istifadə olunan bir vasitədir. Buna görə də ayrı-ayrı millətlərdə dillər bir-birindən fərqlənmişdir".*[19]

Dil, danışmaq və anlaşmaq üçün bir vasitədir və onun bir millətdən digərinə fərqli olmasının o millətin nə irqi ilə, nə də tərəqqi və ya tənəzzül səviyyəsilə heç bir əlaqəsi yoxdur. Ona görə də müəyyən bir dilin insanlarını bir müddət tərəqqi və rifahın zirvəsində görürsən, lakin sonra, dillərini qoruyub saxlamalarına baxmayaraq, onların inkişaf yürüşü dayanır, səviyyələri aşağı düşür, nəticədə geriliyin və tənəzzülün dibinə yuvarlanırlar. Bunun əksi də baş verə bilər. Habelə, eyni dildə danışan cəmiyyətlərin də səviyyələri fərqli ola bilər ki, bu da bəzi xalqların şənini dillərinin fərqliliyinə əsasən ucaldıb, digərlərini alçaldan bir sıra irqçi nəzəriyyələri rədd edir. Belə ki, keçmişdə bəziləri dili insan irqi ilə əlaqələndirməyə çalışmış və Ari xalqlarının, məsələn, sarışın saçları və mavi gözləri olanların dilinin, bu dildə danşan xalqın digərlərindən mütərəqqi olduğunu əsas gətirərək, yüksək səviyyəli dil olduğunu iddia etmişlər. Hətta bu üstünlük iddiasını yoxsul ölkələri müstəmləkəyə çevirmək və sivilizasiyadan geri qalmış xalqları kölə etmək üçün də bir bəhanə kimi istifadə etmişlər. Bu nəzəriyyə günümüzdə Almaniyadakı faşistlər və İtaliyadakı nasistlər tərəfindən qəbul edildi və xalqları onların dillərinin məlum təsnifatlarına əsasən ayırdılar. Ərəblər də siyahının sonlarında yer aldı.

"Artıq (dil ilə irq arasında) belə bir bağlılığın olmadığı və istənilən xalqın yer üzündəki istənilən bir dilə yiyələnməyə qadir olduğu qəti dəlillərlə sübut edilmişdir. Həmçinin, bir dilin digərindən, indiki dövrdə çağdaş Qərb sivilizasiyası üçün səciyyəvi olan müasir elm və texnologiyaya dəlalət edən sözlərlə qazandığı üstünlükdən başqa heç bir üstünlüyü yoxdur. Bu isə, başqa dillərin sivilizasiyaya lazımi sürətlə çata

---

[19] Muhəmməd Baqir əl-Məclisi, Biharul- ənvar, c.3, səh.82, üçüncü çap, Beyrut, İhyaut-turasil-ərəbi mətbəəsi, 1983.

biləcəyi təqdirdə qısa müddətdə aradan gedəcək müvəqqəti bir üstünlükdür ”.[20]

Hər hansı bir millətin mədəni səviyyəsinin irəliləməsi onun dilində əks olunur. Çünki bu millətin həyatındakı irəliləyişləri ifadə etmək üçün yeni sözlər meydana çıxır. Necə ki bu, İslam mədəniyyətinin qurulmasından sonra böyük bir genişlənmə və inkişaf görmüş ərəb dilinin timsalında müşahidə olunmuşdur. Eyni şey sənaye inqilabı və elmi-texnoloji inkişafdan müsbət mənada təsirlənmiş Avropa dillərinə də aiddir.

## Dini fərqlilik

Din insan həyatında dərin kök salmış bir təzahür və onu digər canlılardan fərqləndirən düçüncə və dərrakə keyfiyyətlərinin əks olunmasıdır. Hansı ki, bu keyfiyyətlər onu varlığının mənşəyi, yaradılmasının hədəfi, taleyinin gələcəyi, onu yaradan qüvvə və bu qüvvə ilə bağlılığının dərəcəsi və onunla əlaqəsi barədə suallar verməyə vadar edir. İnsanın bu suallara verdiyi cavablar onun dini və inancıdır.

İnsan düşüncəli və şüurlu bir varlıq olduğu üçün din onu həyatının əvvəlindən müşayiət etmişdir. Buna görə də “ bəzi din tarixçiləri dinin yer üzündə təxminən iki milyon il əvvəl insan həyatının başlaması ilə yarandığını iddia etmişlər”.[21]

Təxminən iki min il əvvəl məşhur Yunan tarixçisi Plutarx deyirdi: *“Divarları olmayan və ya padşahsız, mədəniyyətsiz, teatrsız şəhərlər tapa bilərik, lakin heç kim ibadət yeri olmayan bir şəhərə rast gəlməmişdir”.*

Ondan təxminən yarım əsr sonra Bergson belə yazırdı: *“Bu günə qədər elm, sənət və fəlsəfəsiz insan cəmiyyətləri tapılmış və indi də vardır, amma dinsiz insan cəmiyyəti tapılmamışdır”.*[22]

Fərqlilik və fikirayrılığı insan həyatının digər sahələri kimi bu təhlükəli sahəsinə də şamil olmuşdur. Allah-təala insanı düzgün və qaneedici bir cavab vermədən sual dalğalarının qurbanına çevrilmiş bir çaşqın vəziyyətində qoymamaq üçün onu doğru dinə, düz yola

---

[20] Dr. Nayif Xərma, qeyd olunmuş mənbə, səh. 242.

[21] Beynəlxalq ərəb ensiklopediyası, qeyd olunmuş mənbə, c.10, səh.569.

[22] Əli İzzət Beqoviç, “Şərqlə Qərb arasında İslam”, birinci çap, səh.60, 61, Küveytin “ən-Nur” jurnalı, “Bavariya” fondu, 1994.

yönəldəcək peyğəmbərlər göndərdi. Lakin peyğəmbərlərin rolu ancaq Allahın dinini çatdırmaqla məhdudlaşırdı. Onların bu məsələdə hökmranlıq və nəzarət etmək və insanlara Allahın dinini məcbur qəbul etdirmək haqları yox idi. Buna görə də insanlar iki əsas hissəyə bölündülər; bir hissəsi peyğəmbərlərin çağırışına iman və xatircəmliklə cavab verdi, digər hissə isə Allahın dinlərindən üz döndərib öz xəyal və təsəvvürlərindən xurafatçı bütpərəst dinlər və inanclar düzəltdi. Allah-təala bu haqda buyurur:

**" فهل على الرسل الا البلاغ المبين. و لقد بعثنا في كل امة رسولا ان اعبدوا الله واجتنبوا الطاغوت فمنهم من هدى الله و منهم من حقت عليه الضلالة"**

***“Peyğəmbərlərin vəzifəsi isə yalnız açıq-aşkar bir təbliğdir. (Peyğəmbərlər heç kəsi zorla bir işə vadar etməz. Onların borcu ancaq Allahın hökmlərini insanlara çatdırmaqdır).***

***Biz hər ümmətə: “ Allaha ibadət edin, Tağutdan çəkinin!” – deyə peyğəmbər göndərmişik. Onlardan bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə haqq yoldan azmalı olmuşdur”.***[23]

Bu iki əsas hissədə də çoxlu müxtəlif parçalanmalar baş verdi. Belə ki, insan həyatının inkişafı ilahi qanunlar sistemlərinin, bütün səmavi dinlərdəki əsas əqidənin eyni olması şərtilə yenilənməsi və inkişaf etdirilməsini qaçılmaz etdiyi üçün Uca Allahın hikmətinin tələbilə ardıcıl olaraq peyğəmbərlərin göndərilməsi zəruri oldu. Peyğəmbərlərin gətirdikləri şəriətlərin bəzi ardıcılları və mənsubları o şəriətlərin əslini və həqiqətlərini gizlətmək məqsədilə onları təhrif edir və saxtalaşdırırdılar ki, bu da, Allah-təalanın Peyğəmbərimiz həzrət Mühəmmədlə (s) peyğəmbərlərə xitam verməsinədək, insanları ilahi hidayət yoluna qaytarmaq üçün hər dəfə yeni bir peyğəmbərin göndərilməsini zəruri edirdi. Lakin baş verən o oldu ki, bəziləri əvvəlki dinlərin təhrifə məruz qalmış qalıqlarından yapışıb qaldı və sonrakı peyğəmbərlərə itaət etmədilər və beləcə birinci hissə - səmavi dinlərin ardıcılları müxtəlif dinlərə ayrıldı ki, onlardan da ən əsasları İslam, Xristianlıq və Yəhudilikdir.

Allahın dinindən üz döndərən və özü üçün bütpərəst dinlər yaradan digər hissəyə gəlincə, bu hissə də çoxlu yollara bölündü və müxtəlif istəkləri meydana çıxdı. Bunlardan ən məşhurları isə Hinduizm, Zərdüştlük, Konfutsilik, Buddizm, Taoizm və Sintodur.

---

[23] ən-Nəhl, 35, 36.

| **Bəzi dinlərin ardıcıllarının təxmini sayı:**[24] | |
|---|---|
| Müsəlmanlar | 924612000 |
| Roma katolikləri | 971702000 |
| Hindular | 689250000 |
| Protestantlar | 422429000 |
| Buddistlər | 311438000 |
| Çin xalq dinləri | 170236000 |
| Pravoslavlar | 163623000 |
| Sixilər | 17735000 |
| Yəhudilər | 17357000 |
| Sintolar | 3205000 |

Qurani-kərim dinlərin çoxluğu və fərqliliyindən söhbət açmış və Allahın insana azadlıq və seçim bəxş etməsinə, onun daxilində yaxşılığa və pisliyə meyl yaratmasına əsasən, bu fərqlilik və ixtilafı dünya həyatındakı təbii bir təzahür hesab edərək səmavi və bütpərəst dinlərdən əsaslarının adlarını qeyd etmişdir. Bu dinlərin ardıcıllarını ayırd etmək və aralarında hökm çıxarmaq məsələsini isə dünyadan sonrakı həyata saxlamışdır.

Allah-təala bu barədə buyurur:

**" ان الذين امنوا و الذين هادوا و الصابئين و النصارى و المجوس و الذين اشركوا ان الله يفصل بينهم يوم القيامة ان الله على كل شيء شهيد"**

***“Həqiqətən, Allah iman gətirənlər (müsəlmanlar), yəhudilər, sabiilər (ulduzpərəstlər), xaçpərəstlər, atəşpərəstlər və müşriklər arasında qiyamət günü (haqq ilə batili ayırd edərək) hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah hər şeyə şahiddir! (Onların nə etdiklərini və nəyə layiq olduqlarını çox gözəl bilir!)***[25]

Bu mübarək ayə o dövrdə məşhur və hakim olan 6 dinin ardıcıllarını qeyd edir; müsəlmanlar ***(iman gətirənlər)***, yəhudilər, sabiilər, xristianlar, atəşpərəstlər və müşriklər.

---

[24] Büynəlxalq ərəb ensiklopediyası, qeyd olunmuş mənbə, c.10, səh.571.

[25] əl-Həcc, 17.

Bu məsələdə Quranın mənasının mahiyyətini tematik konteksti daxilində diqqətlə araşdıranlar şübhəsiz ki, Quranın insanlar arasındakı dini fərqlilik gerçəkliyini etiraf etmək mahiyyətində olduğunu və hətta bu gerçəkliyin bir neçə aspekt və mövzuda müzakirəsini asanlaşdırdığını anlayırlar.

Birincisi, dini plüralizm vəziyyətini *"Dində məcburiyyət (zorakılıq) yoxdur"*[26] və *"Sizin öz dininiz var, mənim də öz dinim! (Elə isə sizin dininiz sizə, mənim dinim də mənə)* ayələrinə əsasən zor gücünə ləğv etmək olmaz.

İkincisi, Allahın dininə iman gətirmiş insan başqalarını öz mənsub olduğu dinə dəvət etməkdə *"(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (İslama) dəvət et"*[27] ayəsinin çağırışına uyğun olaraq alçaltmaya, təhqirə, əsəbilik və hissiyyata qapılmaya yol vermədən dinə uyğun ləyaqətli bir metoda güvənməlidir.

Üçüncüsü, insan dini mənsubiyyət məsələsində həqiqəti tapmağı özünə hədəf seçməlidir. Çünki belə olduqda artıq onun haqqı və doğru olanı tapmaq üçün başqa dinlərə və nəzəriyyələrə açıq olması labüdləşir: *"O kəslər ki, sözü (öyüd-nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar".*[28]

İnsanın düşünmədən, müzakirə etmədən irsi olaraq mənsub olduğu əqidəsilə kifayətlənməsi düzgün deyildir:

*"Dedilər:"Atalarımızın getdiyi yol bizə yetər". Bəs ataları heç bir şey bilməyib doğru yolda deyildilərsə necə?!"*[29]

Bu səbəbdən də müxtəlif dinlər arasında dəlil və sübutlara əsaslanan düzgün dialoq üstünlük təşkil etməlidir: *"Yoxsa (müşriklər özləri üçün) Ondan (O Allahdan) başqa tanrılar qəbul etdilər? (Ya Rəsulum!) De:"(Etdiyiniz əməlin düzgünlüyünü sübut edən) dəlilinizi gətirin"*[30]

Dinlərarası dialoq isə obyektiv, sakit və qarşılıqlı hörmət əsasında olmalıdır: *"Kitab əhlinin zülm edənləri istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin!"*[31]

---

[26] əl-Bəqərə, 256.
[27] ən-Nəhl, 125.
[28] əz-Zumər, 18.
[29] əl-Maidə, 104.
[30] əl-Ənbiya, 24.
[31] əl-Ənkəbut, 46.

İnsanlar arasındakı münasibətlərin mənşəyi birgəyaşayış, uyğunlaşma və qarşılıqlı hörmət olduğu üçün onların arasındakı dini fərqlilik münaqişə və çəkişməyə səbəb olmamalıdır və kimin nəfsi onu onunla fərqli əqidədə olanlara təcavüz etməyə sövq edərsə, dərhal onu dayandırmaq və düşmənçiliyinin qarşısını almaq lazımdır: *"Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!"*[32]

İslam, hətta bütpərəst dinlərin davamçılarının belə, hisslərini onların müqəddəslərini söyərək incitməyi qadağan edir. Çünki onların da təbii reaksiyası müsəlmanların müqəddəslərini söymək olacaq: *"Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da (Allaha qarşı hörmət və ehtiram) bilmədikləri üzündən Allahı düşməncəsinə söyərlər. Beləcə,hər bir ümmətə öz əməllərini gözəl göstərdik. (Möminlərə Allah rizasına gördükləri işləri gözəl göstərdiyimiz kimi, kafirlərə də çirkin əməllərini yaxşı göstərdik)".*[33]

[32] əl-Mumtəhinə, 8.
[33] əl-Ənam, 108.

# İkinci fəsil:

# FƏRQLİLİK VƏ MÜXTƏLİFLİK İSLAMİ BİR BAXIŞDIR

- **Birincisi: İlahi qüdrətin və hikmətin təzahürüdür**
- **İkincisi: Fərqliliyin qanuniliyi**
- **Üçüncüsü: Fərqlilik tanınmaq üçündür**
- **Dördüncüsü: Fərqlilik müsbət rəqabət üçündür**

## Birincisi: İlahi qüdrət və hikmətin təzahürüdür

Bir çox hallarda insanlar arasındakı fərqlilik münaqişə və çəkişmələrə səbəb olurdu. Bu, ya bir qrupun ondan fərqli olan digər bir qrupun şəxsiyətini aşağılamağa yönəlik hərəkətlər etməyə, onu öz tabeçiliyi altına salıb üzərində hökmranlıq etməyə çalışması üzündən, ya hər hansı bir mənsubiyyətin başqalarından üstünlüyünü uyduran nəzəriyyə və illuziyaların meydana çıxması nəticəsində, yaxud da tərəflərdən birinin fərqlilik vəziyyətindən öz maraq və mənfəəti üçün ixtilaf və düşmənçilik yaratmaq fürsəti kimi istifadə etməsinə görə baş verirdi. Bəşər tarixi dini, irqi, milli, qəbilə və hətta təbəqə bərabərsizliyi zəminində baş vermiş müharibələr və qarşıdurmalarla doludur. Elə isə bəs İslamın bəşər övladlarının fərqliliyi və müxtəlifliyinə dair baxışı nədir?

Qurani-kərimin ayələri üzərində düşünmək və nəcib sünnə mətnlərini, o cümlədən müsəlman imamlarının həyat tarixçəsini diqqətlə oxumaqla fərqlilik və müxtəliflik məsələsini həll edəcək aydın bir baxış əldə edə bilərik.

Qurani-kərim insanların nəzər-diqqətini bu fərqlilik və bərabərsizliyin əlamətləri barədə, onların eyni mənşə və tərkiblərdən qaynaqlandığını nəzərə almaqla, düşünməyə yönləndirir. Bunda isə Yaradanın qüdrət, əzəmət və bənzərsiz yaradıcılığının çox aydın nişanələri vardır. Belə ki, bu fərqlilik həm kainata, həm də həyata gözəllik və möhtəşəmlik verir. Yaradanların ən gözəli olan Allah nə qədər uca, nə qədər uludur!

Bu fərqliliyin arxasında insanın onları əldə etmək və anlamaq üçün zehnini hərəkətə gətirməli və səy göstərməli olduğu bir sıra sirlər, səbəblər və amillər dayanır. Buna isə o, yalnız elm və biliklə nail ola bilər. Qurani-kərim düşüncə və təfəkkür tələb edən bu ümumi vəziyyətə nümunə və misal olsun deyə, kainatda və həyatdakı fərqliliklərin bəzi təzahürlərini göstərmişdir:

A) Bal, arıların çiçək nektarını sorduqdan sonra istehsal etdiyi bu ləzzətli qida, müxtəlif rənglərdə və fərqli tamlarda olur: ***“ Rəbbin bal arısına belə vəhy (təlqin) etdi: “Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda (evlərin damında, üzümlüklərdə) özünə evlər tik (pətəklər sal). Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat (asanlıqla) get”. (O arıların) qarınlarından***

***insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxar. Şübhəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır!"***[34]

B) Başqa bir yerdə Quran-kərim bitkilər, cansızlar, heyvanlar və insanlar aləmindəki fərqliliklərdən söhbət açır. Həqiqətən, kainatı əhatə edən fərqlilik təzahürü haqqında düşünmək və onun sirləri, istiqamətləri barədə elmi araşdırma aparmaq insanı tədbirli Yaradanın əzəmət və sonsuz qüdrətini dərk etməyə yönəldir ki, nəticədə o, özünü Alaha təslim edir və Onun əmrinə boyun əyir. Allah-təala buyurur:

***"(Ya Peyğəmbər!) Məgər Allahın göydən bir yağmur yağdırdığını görmürsənmi? Sonra Biz onunla növbənöv meyvələr yetişdirdik və dağlarda müxtəlif rəngli – ağ, qırmızı, tünd qara yollar (yaxud tünd qara qayalar) peyda etdik.***

***"İnsanların, (yer üzündə gəzən) heyvanların və davarlarında bu cür müxtəlif rəngləri vardır. Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar. (Onlar elm sahibi olduqları üçün Allahın vəhdaniyyətini, heybət və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar). Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, bağışlayandır!"***[35]

C)Allah-təalanın bu həyatda insan üçün hazırladığı nemətlər və ona xidmət göstərmək üçün ram etdiyi qüvvələr də eyni növdən və ya eyni standart üzrə deyil, əksinə, hətta hər bir növün özü də müxtəlif formalı və rəngarəngdir. Sadəcə, lazımi mənaları əldə etmək üçün insanın xatırlamaq və düşünmək yolu ilə diqqətini cəmləməsinə ehtiyac vardır: ***"(Allah) yer üzündə yaratdığı cürbəcür şeyləri (heyvanları, bitkiləri, meyvələri və s.) də sizin ixtiyarınıza verdi. Öyüd-nəsihət qəbul edənlər üçün sözsüz ki, bunda da (Allahın qüdrətini, əzəmətini bildirən) əlamətlər vardır!"***[36]

D) Eyni məzmunda irqləri, millətləri, dilləri və rəngləri müxtəlif olan insan aləmindəki fərqlilikdən söhbət açılır və bütün bunların arxasında yalnız elmi araşdırmalarda səy göstərənlərin anlayacağı həqəqətlər və sirlər yatır. Belə ki, məhz alimlərə bu fərqliliyin ilahi qüdrət və müdrikliyin göstəricisi olduğu aydın olur:

***"Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda***

[34] ən-Nəhl, 68, 69.
[35] Fatir, 27, 28
[36] ən-Nəhl, 13.

***bilənlər (ağıl və elm sahibləri) üçün (Allahın vəhdaniyyətinə, Onun hər şeyə qadir olmasına dəlalət edən) nişanələr vardır!"***[37]

## İkincisi: Fərqliliyin qanuniliyi

Aydın məsələdir ki, insanlar arasındakı fərqlilik iki növdür:

Birincisi, insanların seçim şansı olmadan yaradılışdan içərisində olduqları təbii fərqlilikdir. Belə ki, kimsə ilə dünyaya gəlməzdən əvvəl hansı irqə, hansı millətə mənsub olacağı məsləhətləşilmir, zahiri görünüşünün və cizgilərinin necə olacağı ilə bağlı ona seçim verilmir. Ağdərili özü üçün ağlığı, qaradərili də görünüşü üçün qaralığı özü seçməyib. Heç bir bəşər övladı aid olduğu soydan olmasına və mənsub olduğu millətə mənsubiyyətinə özü qərar verməyib. Bu təbii fərqlilik Allahın əmri və iradəsilə gerçəkləşir və elə bu səbəbdən Uca Allah onu ərəb dilindəki "cəələ" (etmək, yaratmaq, qərar vermək) feli ilə ifadə etmişdir: ***"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra sizi xalqlar və qəbilələr şəklində qərar verdik (xalqlara və qəbilələrə ayırdıq)"***[38]

Odur ki, Allah-təalanın Özü bizi fərqli irqlərdə, müxtəlif millətlər və xalqlarda qərar vermişdir.

İkincisi, insanın inanc və düşüncələrindən, həyat tərzinin standartları və istiqamətlərindən asılı olaraq qazanılan ixtiyari fərqlilikdir. Hər bir insan hansı dini qəbul etdiyinə, hansı düşüncəyə inandığına və özü üçün hansı mədəniyyəti, hansı həyat tərzini və davranışı rəva bildiyinə özü qərar verir. Buna görə də insanlar arasında bir çox dinlər, fərqli düşüncə məktəbləri və müxtəlif siyasi istiqamətlər mövcuddur.

Bu növ fərqlilik insanın bu həyatda varlığı üçün olan ilahi təqdir və hikmətdən qaynaqlanır. Çünki Uca Allah onu sərbəst düşünə və qərar verə biləcək şəkildə azad, iradəli və ixtiyarlı yaratmışdır ki, sınaq və imtahan məqamında olsun və nəticədə mükafat və cəzaya layiq olsun. Allah-təala buna işarə edərək buyurur:

***"Əgər Allah istəsəydi, sizi (eyni şəriətə tabe) vahid bir ümmət edərdi. Lakin bu (müxtəliflik) Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür".***[39]

---

[37] ər-Rum, 22.

[38] əl-Hucurat, 13.

[39] əl-Maidə, 48.

*“Əgər Rəbbin istəsəydi, bütün insanları (eyni dində olan) tək bir ümmət edərdi. Onlar (yəhudi, xaçpərəst, atəşpərəst və i.a. olmaqla dinləri barəsində) hələ də ixtilafdadırlar”.*[40]

*“Əgər Allah istəsəydi, sizi (eyni dində olan) tək bir ümmət edərdi. (Allah) istədiyini zəlalətə salar, istədiyini isə doğru yola yönəldər”.*[41]

*“(Axirətdə insanların) bir qismi (möminlər) Cənnətdə, bir qismi (kafirlər) isə Cəhənnəmdə olacaqdır!*

*Əgər Allah istəsəydi, onların hamısını (eyni dində olan) vahid bir ümmət edərdi”.*[42]

Bu həqiqətin əhəmiyyətinə və bəzi insanların başqalarının qərarını və azadlıqlarını onları öz inandıqlarına məcbur etməklə müsadirə etməyə cəhd göstərə biləcəyinə görə Quran məsələni təkidlə vurğulamaq və möhkəmləndirmək üçün dönə-dönə qeyd edir. Əgər məcburi istiqamətləndirmə məqbul bir şey olsaydı, Allah bütün yaratdıqlarını və bəndələrini Ona iman gətirmək və haqq dininə tabe olmaq yoluna yönləndirərdi. Halbuki O, Öz hikmətilə seçim azadlığını insana buraxmışdır: ***“Və de:”Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın (kafir olsun)...””***[43]

Əgər Allah-təalanın hikməti insanları seçimlərində azad hesab etdiyi üçün və onların imtahan dünyasında yaşadıqlarını nəzərə alaraq, aralarında dinləri və istiqamətləri ilə bağlı belə bir fərqliliyin meydana çıxmasına imkan vermişsə, o zaman kiminsə bu fərqliliyi aradan qaldırmağı və insanları bir istiqamətə getməyə məcbur etməyi düşünməsi doğru olarmı?

Qətiyyən! Hətta peyğəmbərlər də, sadəcə, Allahın qanunlarını çatdırmaq və doğru olanı göstərmək rolunu yerinə yetirmişlər. Heç bir peyğəmbər və rəsulun (yeni şəriət gətirmiş peyğəmbər) məcbur etmək, hökmranlıq və nəzarət etmək haqqı olmamışdır.

Allah-təala bu xüsusda buyurur: ***“Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?! (Bu sənin işin deyildir. Sənin vəzifən ancaq İslamı təbliğ etməkdir).***[44]

---

[40] Hud, 118.
[41] ən-Nəhl, 93.
[42] əş-Şura, 7,8.
[43] əl-Kəhf, 29.
[44] Yunus, 99.

***“(Ya Peyğəmbər! Mənim bəndələrimə) öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən!***

***Sən onların üzərində hakim deyilsən!”***[45]

Doğrudur, həqiqət birdir və çoxalmır, lakin insanı haqqa məcbur və təslim etdirəcək haqqı batildən ayıran qəti hökm qiyamət gününə qədər təxirə salınmışdır. Dünyadakı sınaq və imtahan fürsəti bitdikdən sonra bütün insanlar məcburi və qəti bir həqiqətlə qarşılaşacaqlar. Dünyada isə dinlər, məzhəblər və rəylər arasında fərqlilik və ixtilafa imkan verilmişdir. Hər bir tərəf ya həqiqətən inandığı üçün, ya da təəssübkeşlik üzündən haqqın onunla olduğunu və haqqa sahibləndiyini iddia edir: ***“Yəhudilər dedilər: “Xaçpərəstlər (dində düzgün və mötəbər) bir şeyə istinad etmirlər”. Xaçpərəstlər də: “Yəhudilər (dində düzgün və mötəbər) bir şeyə istinad etmirlər”, - söylədilər. Halbuki onların hər ikisi kitab (Tövrat və İncil) oxuyur. (Kitab əhli olmayan və yazıb-oxumaq) bilməyənlər də onlar kimi danışdılar. Allah onların aralarındakı bu ixtilafın hökmünü qiyamət günü verəcəkdir!”***[46]

***“Hamınızın axır dönüşü Allahadır. (Allah) aranızda ixtilaf doğuran məsələlər barəsində sizə xəbər verəcəkdir!”***[47]

Beləcə, fərqliliyin İslam baxışındakı qanuniliyi, düzgünlüyündən asılı olmayaraq müxtəlif fikir və meyllərin meydana çıxma və mövcud olma hüququnu qəbul etmək mənasında bizə aydın olur. Əks halda həqiqət də, Allah yanında qəbul olunan din də birdir: ***“Allah yanında (haqq olan) din, əlbəttə, İslamdır”.***

***“ Kim İslamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!”***[48]

## Üçüncüsü: fərqlilik tanınmaq üçündür

Əgər fərqlilik köklərdəki və ya mədəniyyətlərdəki müxtəliflikdən, yaxud həyat tərzi və onun şərtlərindən, yaxud da müxtəlifliyin digər tərəflərindən qaynaqlanırsa, o zaman bu fərqlilik müxtəlif insan toplumları arasında tanışlıq və ünsiyyət üçün bir motivə çevrilməlidir.

---

[45] əl-Ğaşiyə, 21,22.

[46] əl-Bəqərə, 113.

[47] əl-Maidə, 48.

[48] Ali-İmran, 19, 85.

Birincisi, ona görə ki, hər bir toplum digər toplumların reallığını öyrənsin, onların xüsusiyyətləri və üstünlükləri ilə tanış olsun. İnsan öyrənməyə və bilməyə çox həvəsli olur, həmçinin öz tipindən olan insanlara meyl edir ki, bu da normal vəziyyətdə bəşər övladları arasında tanışlıq və ünsiyyət üçün təşviq yaradır.

İkincisi, hər bir ümmətin digər ümmətləri tanıması və onların gerçəkliyini öyrənməsi onun təcrübəsini zənginləşdirir, eləcə də ona başqalarının güclü tərəflərindən faydalanmaq və zəifliklərindən qorunmaq fürsəti yaradır. Buna görə də Qurani-kərim aşağıdakı ayədə fərqliliyin tanışlıq üçün bir motiv olmasının lazımlığına işarə edir: ***"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir)".***[49]

Lakin məsələ burasındadır ki, xalqlar və millətlər arasında bir-birini tanımaq marağı qarşılıqlı hörmət zəminindən qaynaqlanır. Ona görə də bir toplum digərlərini qiymətləndirməyərək onlara hörmətsizlik və nifrət gözü ilə baxdıqda və onların qarşısında üstünlük duyğusu ona hakim kəsildikdə digərlərindəki güclü tərəfləri və yaxşı xüsusiyyətləri araşdırmağa meylli olmur. Odur ki, Quran-kərim tanışlıq çağırışına millətlər və xalqlar arasında istehza və hörmətsizlik yanaşmasını pisləyərək zəmin yaradır. Belə ki, yuxarıdakı ayədən öncəki mübarək ayələrin gedişində belə buyurulur: ***"Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar (lağa qoyulanlar) o birilərindən (lağa qoyanlardan Allah yanında) daha yaxşı olsunlar. Qadınlar da bir-birinə (rişxənd eləməsinlər). Bəlkə, onlar (rişxənd olunanlar) o birilərindən (rişxənd edənlərdən) daha yaxşıdırlar".***[50]

Əlbəttə, söhbət bir şəxsin digər bir şəxsi lağa qoymasından getmir. Təbii ki, bu da rədd edilən və qınanılan bir hərəkətdir, amma "*bir qövm digərini"* ifadəsindən məlum olur ki, burda söhbət toplumlar arasındakı əlaqə və davranışdan gedir. Həmçinin, Qurani-kərim başqalarını görünüş və forma hüdudlarında qimətləndirməkdə dayanıb qalmamağa, əksinə onlarda üstün keyfiyyətlər və dəyərli xüsusiyyətlər axtarmağın vacibliyinə diqqəti çəkir: *"Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərədən ən çox çəkinəninizdir)".*

---

[49] əl-Hucurat, 13.

[50] əl-Hucurat, 11.

## Dördüncüsü: Müsbət rəqabət

Hər bir toplumun digər toplumlar qarşısında öz mövqeyini möhkəmləndirməyə və özünü təsdiq etməyə çalışması təbiidir. Bəs bu möhkəmləndirmə və təsdiqi gerçəkləşdirmək üçün uyğun metod və yanaşma hansıdır?

Burada iki yanaşma və iki metod vardır. İki yanaşmaya gəlincə, onlardan birincisi, başqasını zəiflətməyə, onun güclü tərəflərini məhv etməyə, inkişaf və tərəqqisinə mane olmağa çalışmaqdır. Belə ki, başqası çökdükdə və ya zəiflədikdə bu tərəf artıq onu narahat edən və ya etmək səviyyəsində olan heç bir qüvvə qalmadığı üçün meydanda nəzərə çarpan əsas güclü tərəfə çevrilir.

İkinci yanaşma isə, əməli şəkildə digərindən önə keçmək üçün özünü gücləndirməyə və potensial inkişafa diqqət yetirməkdir.

Beləliklə, birinci yanaşma münaqişə və qarşıdurma, ikinci yanaşma isə müsbət rəqabət yoludur. Buna sadə bir misal çəkək: iki nəfər qaçış meydançasında yarışdıqda və onlardan hər biri öz rəqibi qarşısında müəyyən məsafədə irəliləyişə nail olmaq istədikdə ya rəqibi dayandırmaq və ondan önə keçə bilmək üçün ona mane olmağa çalışa, ya da rəqibin var gücü ilə qaçmasına imkan verib özü də ondan sürətli qaça bilmək üçün səyini ikiqat artıra bilər.

Münaqişə və qarşıdurma yolu bəşəriyyətə çox sayda qurbanlar və itkilərə başa gəlir. Çünki bu yol hər bir tərəfi digərilə məşğul edir, hər iki tərəfin səylərini yer üzünün abadlaşdırılması və həyatın inkişafına yönəltmək əvəzinə onu qazanc və nailiyyətlərin qarşılıqlı məhvinə, qarşıdurma və münaqişə yaratmağa sərf edir.

Dünyadakı müxtəlif güclərin silahlanma xərclərindəki yüksək rəqəmlərə, eləcə də müharibə və savaşlardakı qarşılıqlı itkilərə nəzər saldıqda və bunu bir çox insan cəmiyyətlərinin ağır yoxsulluq və ehtiyacdan əziyyət çəkməsilə müqayisə etdikdə bu təhlükəli tendensiyanın dəhşəti bizə aydın şəkildə görünür. Burada Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının 1994-cü ildə yaydığı hesabatdan, sadəcə, bir bəndi qeyd etməklə kifayətlənirik. Həmin hesabatda deyilir:

*“Hindistan ənənəvi silahlar alan ən inkişaf etməkdə olan ölkələrdən biri sayılır. Bu ölkə məktəbə getməyən 15 milyon qız uşağının təhsil xərcinə bərabər qiymətə iyirmi ədəd “MİG” döyüş təyyarəsi almışdır. Həmçinin, Cənubi Koreya 120 min uşağı peyvənd etməyə və onları*

*yoluxucu xəstəliklərin təsirindən qorumağa kifayət edəcək qiymətə 28 ədəd Amerika raketi almışdır.*

*Cənubi Asiya ölkələri silahlanmaya 19 milyard dollar, Afrika isə 8 milyard dollar xərclədiyi bir vaxtda bu iki bölgədə 800 milyon insan həddindən artıq yoxsulluq içində yaşayır".*[51]

Qurani-kərim bəşəriyyəti fərqlilik reallığından müsbət rəqabət ruhunu alovlandırmaq üçün istifadə etməyə yönləndirir. Belə ki, hər bir tərəf özünü inkişaf etdirməyə, öz üstünlüyü və tərəqqisini yaxşı və xeyirxah əməllər sayəsində qazandığı, eləcə də yer üzünü abadlaşdırması və həyata töhfə verməsilə gerçəkləşdirdiyi nailiyyətlərlə sübut etməyə çalışmalıdır. Allah-təala bu xüsusda buyurur:

***"Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi (eyni şəriətə tabe) vahid bir ümmət edərdi. Lakin bu (müxtəliflik) Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür. Elə isə yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın (bir-birinizlə yarışın). Hamınızın axır dönüşü Allahadır. (Allah) aranızda ixtilaf doğuran məsələlər barəsində sizə xəbər verəcəkdir!"***[52]

Bu mübarək ayənin təfsirində Seyyid Müdərrisi deyir: *"Qurani-kərim burada insanlardakı fərqliliklər məsələsinə toxunaraq, səmavi kitablar və səmavi dinlərin ardıcılları arasındakı ixtilaflar xüsusunda "niyə insanlar təcrübələrində fərqlənirlər?" sualına bir neçə nöqtəyə ayrılan müfəssəl bir cavab verir:*

*A) Hər bir ümmət öz xüsusi maddi və mənəvi həyat təcrübələri ilə seçilir. Hər bir xalqın iqtisadiyyatı, sosiologiyası, fərdi davranışları (və şəriət adlanacaq sair məsələləri), o cümlədən dili, mədəniyyəti, istəkləri (və yol, proqram adlanacaq sair məziyyətləri) digərlərindən fərqlənir.*

*B) Bu fərqlilik fitridir, insanların yaradılışından, həyatdakı müxtəlifliyin təbiətindən və bu müxtəlifliyin insanların varlığına əks olunmasından qaynaqlanır. Əks halda Allah insanları da, quşlar, balıqlar və onlara bənzərləri kimi, aralarında heç bir fərq qoymadan eyni bir ümmət halına gətirməyə qadirdir.*

*C) Fərqlilik insan həyatı üçün faydalıdır. Çünki insanı rəqabətə və xeyirli işlərə tələsməyə sövq edir. Belə ki, hər bir millət digər millətlər üzərində irəliləyiş əldə etməyi hədəf götürərək həyat sistemlərini daha yaxşı bilməyə və potensialından istifadə etmək üçün daha yaxşı vasitələr*

[51] Livanın "əs-Səfir" qəzeti, 02.06.1994.
[52] əl-Maidə, 48.

*tapmağa səy göstərir. Bu səbəbdən tarixdə bəzi böyük sivilizasiyaların məhz tayfaların bir-birilə vahid ümmət daxilində məhv olmaqla nəticələnməyən gizli bir mübarizəsi səbəbindən yarandığını görürük.*

*D) Bu fərqlilik hər bir tərəfin özünə əsas bir düşmən seçərək onun varlığına dostunu aradan götürməklə və ya söz müharibəsilə son qoymağı hədəfə almasına zəmin yaratmamalıdır. Bu, qətiyyən yolverilməzdir. Əksinə, qərarın bu ixtilaf və mübarizənin sonunda kimin lehinə və ya əlehinə olacağını Allaha və axirət gününə buraxmaq lazımdır ki, bu konstruktiv enerji (mübarizə və rəqabət enerjisi) dağıdıcılığa və məhvetməyə yönəldilməsin və hər bir tərəfin hədəfi digər tərəfin qazandıqlarını aradan aparmaq olmasın. Tərəflərin hamısının məqsədi və qayğısı ancaq hamıya yetəcək bu geniş həyat meydanında öz rəqibindən daha böyük qazanc əldə etmək olmalıdır. Allahın insanları fərqli yaratmasının hikməti onları daxili gücləri və onlara verdiyi təbii potensialları dərəcəsində sınağa çəkməkdir ki, bununla hansı tərəfin həyatı daha çox öyrəndiyi və anladığı, həyatdan daha düzgün istifadə etdiyi bilinsin və bunun nəticəsində də iman və saleh əməl baxımından hansının daha öndə və daha üstün olduğu bəlli olsun".*[53]

Bir daha Qurani-kərim yəhudi və xristianlarla fikir ayrılığı haqqında olan söhbətin gedişində onlarla mübahisə etməyin faydasız olduğuna işarə edir:

***"(Ya Rəsulum!) Sən kitab əhlinə hər cür dəlil gətirsən də, onlar sənin qiblənə tabe olmazlar. Sən də onların qibləsinə tabe olan deyilsən. Hətta onlar özləri də bir-birinin qibləsinə üz tutmazlar".***[54]

Faydasız mübahisələrin düzgün alternativi müsbət rəqabət və yaxşı nailiyyətlər uğrunda yarışdır. Ona görə də Allah-təala elə həmin söhbətin gedişində buyurur:

***"Hər kəsin (hər ümmətin) üz tutduğu bir qibləsi vardır. Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın!"***[55]

Uca Allah fərqliliyin gerçəkliyi ilə əlaqəli bu tendensiyanı vurğulayaraq buyurur:

***"Biz (keçmişdən bəri) hər ümmət üçün bir şəriət müəyyən etdik ki, ona əməl edərlər. Elə isə (müşriklər) bu işdə səninlə mübahisə***

---

[53] Seyyid Mühəmməd Təqi əl-Müdərrisi, "Min Hudəl-Quran" təfsiri, c.2, səh.393, ikinci çap, 1407 h.q. (1987).
[54] əl-Bəqərə, 145.
[55] əl-Bəqərə, 148.

***etməsinlər. (Ya Rəsulum!) Sən onları öz Rəbbinə (ibadət etməyə, Onun hökmlərini yerinə yetirməyə) dəvət et. Şübhəsiz ki, sən doğru yoldasan.***

***(Ya Rəsulum!) Əgər səninlə mübahisə etsələr, (onlara) belə cavab ver:"Allah sizin nə etdiyinizi daha yaxşı bilir!"***

***İxtilafda olduğunuz məsələlər barəsində Allah qiyamət günü aranızda Öz hökmünü verəcəkdir!"***[56]

Bu mübarək ayə "*şəriət müəyyən etdik ki, ona əməl edərlər"* ifadəsilə hər bir ümmətin öz ibadət və dindarlıq yolu olduğunu bildirərək fərqlilik gerçəkliyini tanıyır. Sonra "*elə isə bu işdə səninlə mübahisə etməsinlər!"* çağırışı ilə bu ritual dini fərqliliklərdə münaqişə və mübahisələrlə məşğul olmaqdan çəkindirir. Lakin bu, müsbət söhbətlər aparmağa mane olmur. Mömin mübahisə və qarşıdurma labirintinə girmədən dinini və əqidəsini hikmətlə, gözəl öyüd-nəsihətlə təbliğ edə bilər. Necə ki, ayədə də buna işarə edilmişdir: "*Sən onları Rəbbinə dəvət et. Şübhəsiz ki, sən doğru yoldasan".*

Bəlkə də ayənin bu hissəsi meyarın nəzəri bir şifahi mübahisə olmadığına, əksinə həqiqi bir praktik nailiyyət olduğuna işarə edir:*"Əgər səninlə mübahisə etsələr, (onlara) belə cavab ver:"Allah sizin nə etdiyinizi daha yaxşı bilir!".*

Münaqişə və mübahisələrə səy və diqqəti boş yerə sərf etmək əvəzinə cəmiyyətlər arasında əməl və məhsuldarlığın diqqət mərkəzində saxlanmalı olduğunu vurğulamaq üçün Qurani-kərimdə əməli əsas mehvər və ayrılma xətti hesab edən bir sıra ayələr vardır. Belə ayələrdən birində Allah-təala buyurur:

***"(Ya Rəsulum! Kitab əhlinə de:) "Siz Allah barəsində bizimlə mübahisəmi edirsiniz? Halbuki O həm bizim, həm də sizin Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin əməlləriniz isə sizə aiddir!""***[57]

Dərrakəli möminlər özlərini onlara müxalif olanlarla söyüş və təhqir mübadiləsi səviyyəsinə endirməzlər, əksinə bir ayrılma nöqtəsi olaraq əməl məsələsinə diqqəti yönəldərlər:

***"Onlar boş (yersiz) bir söz eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. (Hərə öz əməlinə cavabdehdir). Sizə salam olsun! (Salamat qalın!) Biz cahilləri***

---

[56] əl-Həcc, 67-69.

[57] əl-Bəqərə, 139.

***(cahillərlə yoldaşlıq etmək, onların söz-söhbətinə qulaq asmaq, sonra da onlarla çənə-boğaz olmaq) istəmirik!" – deyirlər".***[58]

Başqa bir ayədə Allah-təala buyurur:

***"Allah bizim də Rəbbimizdir, sizin də Rəbbiniz. Bizim əməllərimiz bizə, sizin də əməlləriniz sizə aiddir. Bizimlə sizin aranızda heç bir mübahisə yoxdur. Allah (qiyamət günü) hamımızı bir yerə toplayacaqdır. Axır dönüş də yalnız Onadır!"***[59] Yəni etiraza və mübahisəyə gərək yoxdur və ya bizimlə sizin aranızda heç bir konflikt yoxdur.

Əsasən, dünya həyatı insanın potensiallarını üzə çıxartmaq və bacarıqlarını aktivləşdirmək üçün bir meydandır. Tərəqqi və zəfər ən bacarıqlının, əməl və məhsuldarlıq baxımından ən yaxşı olanın tərəfindədir:

***"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur".***[60]

---

[58] əl-Qəsəs, 55.

[59] əş-Şura, 15.

[60] əl-Mulk, 2.

# Üçüncü fəsil:

# BİRGƏ YAŞAMAQ METOD VƏ ƏHATƏLİ BİR PROQRAMDIR

- **Giriş**
- **Vətəndaşlar və müxtəlif dinlər**
- **Bir ümmət və çoxsaylı millətlər**
- **Sabit əsaslar və məzhəb fərqliliyi**

# Giriş

Bəşər övladları bu dünyada fərqlilikləri və müxtəliflikləri ilə bərabər maraq və mənfəətləri kəsişən müştərək bir həyat içərisində yaşayırlar. Hər hansı bir kateqoriyadan olan insanların özləri üçün dünyanın bir küncünü seçərək orada heç bir təsir görmədən və təsir etmədən başqalarından uzaq qalmaları mümkün deyildir. Üstəlik, hər bir kateqoriyanın daxilində də fərqliliklər vardır. Belə ki, məsələn, qaradərililər və ya ağdərililər yaşamaq üçün yer kürəsinin hansısa bir tərəfini seçsələr, hər şeydə eyni olmadıqları üçün öz daxillərində milli, tayfa, dini və ya siyasi baxımdan müxtəlif fərqlilik mühitində yaşayarlar. Eyni vəziyyət, məsələn, müsəlmanlar və ya xristianlar yer kürəsinin bir nöqtəsinə toplaşacağı təqdirdə də yaşanar. Çünki onlar irqlər, millətlər, məzhəblər və meyllərdə plüralizmi əhatə edirlər. Bu, ayrılma və təcrid vəziyyətinin həyatın və insanların təbiətinə uyğun olmayan ən dar dairələrə çatana qədər davam etməsi deməkdir.

İnsan həyatında böyük elmi və texnoloji inkişafın getməsilə bəşər övladları arasında məsafələr aradan qalxmış, sərhədlər götürülmüş və dünya, müxtəlif mənsubiyyətlərindən və çoxsaylı kimliklərindən asılı olmayaraq, insanları müştərək maraqları naminə birgə yaşamağa məcbur edən bir kənd halına gəlmişdir. Kainatın nemətləri və həyat imkanları Allah tərəfindən hər kəsin ixtiyarına verilmişdir, onlar bütün insanlar üçündür. Heç kimin onları inhisar etmək hüququ yoxdur, mənsubiyyət və fərqli istiqamətlərə yönəlmə də nə müstəsnalığa, nə də məhrumiyyətə haqq qazandırmır. Buna görə də Qurani-kərim Allahın lütf və nemətlərinin bu həyatda bütün insanların istifadəsi üçün olduğunu, həm möminlərin, həm də kafirlərin bu nemətlərlə bərabər səviyyədə təmin olunduğunu vurğulayır. Çünki Allahın əta etdikləri kimsəyə qadağan deyildir. Mərhəmətli Rəbbimiz bu xüsusda buyurur:

***“Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik. Rəbbinin neməti (heç kəsə) qadağan deyildir”.*[61]**

Başqa bir yerdə isə belə buyurur:

***“Yeri də (bütün) məxluqat üçün O yaratdı”.*[62]**

---

[61] əl-İsra, 20.

[62] ər-Rəhman, 10.

Yer kürəsi və oradakı nemətlər irqləri, dinləri və istiqamətlərinin fərqliliyindən asılı olmayaraq bütün məxluqat üçündür. İmam Mühəmməd Baqir (ə)-dan nəql olunan bir hədisdə buyurulur:

*"İnsanların xeyrinə olan (yaşayış) birgə yaşayışdır"*[63]

Bir kişi İmam Əli ibn Hüseyn Zeynulabidin (ə)-ın hüzurunda: *"İlahi, məni yaratdıqlarına möhtac etmə!"* – deyə dua etdikdə İmam Zeynulabidin ona belə buyurdu: *"Belə (dua etmək doğru) deyil, insanlar bir-birlərinə bağlıdır (işləri bir-birindən keçir, bir-birlərinə qarşılıqlı ehtiyac duyurlar), sən belə de: "İlahi, məni yaratdıqlarının pislərinə möhtac etmə!""*[64]

Odur ki, insanlar bir-birlərinə bağlıdırlar, mənsubiyyət və istiqamətlərinin fərqli olmasına rəğmən, bir-birlərilə birgə yaşamadıqları təqdirdə vəziyyətləri yaxşı olmayacaqdır. Lakin fərqliliklərlə birgə yaşamaq necə gerçəkləşə bilər?

Tez-tez fərqlilik hallarından qaynaqlanan qarşılıqlı münasibət və birgə yaşayış problemlərini aradan qaldırmaq üçün iki əsas şərt mövcuddur:

## Birincisi: Müxtəlif tərəflərin hüquq və maraqlarının təmin edilməsi

Tərəflərdən biri başqa biriləri tərəfindən hüquqlarının tapdandığını və ya maraqlarının pozulduğunu hiss etdikcə birgə yaşamaq mühiti mümkün olmayacaqdır. Adətən, cəmiyyətdə fərqli tərəflər arasında baş verən münaqişə və qarşıdurmalara bir qrupun digərinin hüquq və maraqlarına təcavüz və saymamazlıq etməsi səbəb olur. Məzlum tərəf azlıqda və ya zəif olsa belə, özünə qarşı zülm və haqsızlıq hiss etməsi onun başqa tərəflərlə müsbət qarşılıqlı münasibətinə mane olur, hətta bu onu intiqam haqqında düşünməyə də vadar edir. Buna görə də Qurani-kərim başqalarının hüquqlarına hörmət etməyin, fərqli əqidə və düşüncədə olanlara qarşı haqsızlıq etməməyin vacibliyini vurğulayır. Möminlərin kafirlərlə qarşılaşdıqları zaman özlərini müdafiə etmək hüququ var, ancaq onlar müdafiə hüdudlarında dayanmalı və bu hüdudları aşaraq haqsızlıq etməməlidirlər:

---

[63] Mühəmməd Baqir əl-Məclisi, "bihar əl-ənvar", c.71, səh.167, Beyrut, "İhya ət-turas əl-ərəbi" mətbəəsi, 1983.

[64] Eyni mənbə, c.75, səh.135.

***"(Ey möminlər!) Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz!"*[65]**

Digər bir ayədə isə Allah-təala buyurur:

***"(Vaxtilə) sizi Məscidülhərama daxil olmağa qoymayan camaata qarşı bəslədiyiniz kin sizi təcavüzə sövq etməsin (zülm və haqsızlıq günahına batırmasın)".*[66]**

Bir qrupda digərinə qarşı hansısa həssaslığın olması hüquqlarda ədalət prinsipinə riayət etməyə təsir göstərməməlidir. Uca Rəbbimiz bu haqda buyurur:

***"Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır".*[67]**

Mömin şəxsin öz mənsubiyyətinin və ya emosional gərginliyinin lehinə haqq- ədaləti pozmaq hesabına qərəzli mövqe tutması yolverilməzdir. Allah-təala bu haqda buyurur:

***"Ey iman gətirənlər! (Şahidliyiniz) sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınzın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun! (Əleyhinə şahidlik edəcəyiniz şəxs) istər dövlətli, istər kasıb olsun, hər halda Allah onların hər ikisinə (sizdən) daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin!"*[68]**

## İkincisi: Qarşılıqlı hörmət

İnsanlıq bəşər övladları üçün ortaq mahiyyətdir. Onlar bir-birlərinə ehtiram göstərməklə öz insanlıqlarına hörmət etməlidirlər. istiqamətləri fərqli olsa da, insanlıqlarında tay və bərabərdirlər. Eynilə İmam Əli ibn Əbu Talib (ə)-ın buyurduğu kimi: *"Onlar (insanlar sənin üçün) iki qrupdurlar: bir qrupu dində sənə qardaş, o biri də yaradılışda sənə taydır".*[69]

Qurani-kərim müsəlmanları onlarla fərqli dində olanlarla yaxşı rəftar etməyə, onlarla yaxşılıq, hörmət və hüquqların qorunması prinsiplərilə münasibət qurmağa təşviq edir. Onlar sülh tərəfdarı olmağa davam

---

[65] əl-Bəqərə, 190.

[66] əl-Maidə, 2.

[67] əl-Maidə, 8.

[68] ən-Nisa, 135.

[69] Şərif Rəzi, "Nəhcül-bəlağə", 53-cü məktub.

etdikcə düşmənçiliyə müsəlmanlar başlamamalıdır. Aşağıdakı ayədə də Allah-təala bunu vurğulayır:

***“Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!”*** [70]

Allah Rəsulunun (s) ərəblər arasındakı yəhudi qəbilələri, xristian qrupları və müşrik dəstələri ilə bağladığı ittifaqlar və sülh müqavilələri İslamın ortaq şəkildə bir arada yaşamaq üçün fərqli insanlar arasında müsbət insani münasibətlər qurmaq istəyinə bir nümunədir.

Tarix müsəlmanların İslam təlimlərinin tələblərinə müvafiq olaraq həmin müqavilələrə riayət etməkdə həvəsli olduqlarını, bu əhdlərə gözəl şəkildə və sədaqətlə əməl etdiklərini qeyd edir. Həmin tələblər aşağıdakı ayələrdə öz əksini tapmışdır:

***“Əhdə vəfa edin. Çünki (insan) əhd barəsində (qiyamət günü) cavabdehdir. (İnsan verdiyi əhdi yerinə yeitirib-yetirmədiyi haqda sorğu-sual olunacaqdır)”.*** [71]

***“Yaxşı əməl sahibi əslində ..., eləcə də əhd edəndə əhdinə sadiq olanlardır”.*** [72]

Allah bütün insanları yaradaraq hamısına nemətlərini və lütfünü yağdırdığı kimi, Onun dini və yolu da hamıya aiddir. İslam nə irq, nə millət, nə də qəbilə dini deyil, əksinə Allahın aşağıdakı ayələrdə Öz Peyğəmbəri Mühəmmədə (s) müraciət etdiyi kimidir:

***“(Ya Rəsulum!) Biz səni (təkcə öz qövmünə deyil) bütün insanlara (möminlərə Cənnətlə) müjdə verən və (kafirləri isə Cəhənnəm əzabı ilə) qorxudan bir peyğəmbər olaraq göndərdik”.*** [73]

***“(Ya Rəsulum!) De: “Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm...””*** [74]

Hətta Allahın onlara göndərdiyi yolu tutmaqdan imtina edərək tapınacaqları bir din olaraq İslamı qəbul etməyə müvəffəq olmayanlar belə, İslamın kölgəsinə sığınmaqdan, İslam dövlətinin və qanunlarının himayəsində yaşamaqdan məhrum deyillər. İslam dini və İslam

---

[70] əl-Mumtəhinə, 8.

[71] əl-İsra, 34.

[72] əl-Bəqərə, 177.

[73] Səba, 28.

[74] əl-Əraf, 158.

Peyğəmbəri bütün bəşəriyyətə ən yaxşı hədiyyə və rəhmətdir. Allah-təala buyurur:

***“Səni də (ya Rəsulum!) aləmlərə ancaq bir rəhmət olaraq göndərdik”.***[75]

Ötən fəsildə İslamın insan cəmiyyətindəki fərqlilik və müxtəliflik məsələsinə baxışını aydınlaşdırdıqdan sonra bu fəsildə fərqlilik gerçəkliyinin İslam toplumundakı və İslam sivilizasiyasının kölgəsindəki bəzi məqamlarını qeyd etmək istərdik.

## Vətəndaşlar və müxtəlif dinlər

Həzrət Rəsulullahın (s) Mədinəyə hicrətindən sonra orada İslam cəmiyyətinin qurulmasının ilk ilində o Həzrət cəmiyyəti və inkişaf etməkdə olan İslam dövlətini idarə etmək üçün “Mədinə qanunnaməsi” kimi məşhur olan siyasi və təşkilati bir konstitusiya hazırladı. Bu qanunnamə qeyri müsəlmanların vətəndaşlığını və onların yeni cəmiyyətin təşkilindəki rolunun qəbul edilməsini təmin edir, eləcə də onlardan tələb olunan öhdəlikləri və sahib olduqları hüquqları müəyyənləşdirirdi. Onlar bu qanunnamədə digər müsəlman vətəndaşlarla eyni hüquqlara sahib idilər. Allah Rəsulunun (s) diktəsi ilə yazılmış və imzalanmış bu qanunnamənin bəndlərindən birində deyilirdi:

*“Bəni-Auf (Auf oğulları qəbiləsinin) yəhudiləri möminlərlə bərabər bir ümmətdir. Yəhudilərin öz dini, müsəlmanların da öz dini var. Haqsızlıq və ya günah (cinayət) edənlər xaricində onların özləri də, dostları da toxunulmazdırlar, (onların haqsızlıq və ya günahının cəzası isə) ancaq özlərinə və ailə üzvlərinə aid ediləcəkdir. Bəni-Auf yəhudilərinə verilən hüquqlar eynilə Bəni-Nəccar yəhudilərinə də verilir..”.*

Qanunnamədə eyni məzmunda digər yəhudi qəbilələri də sadalanır və ardınca əlavə edilir:

*“Yəhudilərin xərcləri özlərinə, müsəlmanların xərcləri də özlərinə aiddir. Onların arasında bu qanunnamənin üzvlərilə vuruşanlara qarşı köməkləşmə (əməkdaşlıq) vardır. Eləcə də aralarında günaha (cinayətə) yol vermədən (qarşılıqlı) öyüd-nəsihət və xeyirxahlıq (haqları) vardır. (Aralarında mübahisə və ya münaqişə yarandıqda) kimsə öz müttəfiqinə haqsızlıq etmədikcə, (haqqı tapdanmış) məzlum tərəfə kömək olunmalıdır. Yəhudilər döyüşdükləri müddətdə möminlərlə bərabər (döyüşə sərf*

---

[75] əl-Ənbiya, 107.

*onunan) xərcləri ödəməlidirlər. Yəsribin (Mədinənin) içərisi bu qanunnamənin üzvləri üçün toxunulmazdır (Yəsribin içərisinin toxunulmazlığı bu qanunnamənin üzləri tərəfindən təmin olunmalıdır)..."*[76]

Şeyx Mühəmməd Mehdi Şəmsəddin bu bəndləri şərh edərək deyir:

*"Bu bəndlər göstərir ki, İslam bir ölkədə və bir idarəetmə sistemində İslam əsasları üzərində, hər kəsin tam vətəndaşlıq hüququndan istifadə etdiyi fərqli siyasi bir cəmiyyət qurmaq ideyasının tərəfdarıdır və dövlət qurmaq üçün saf bir İslam cəmiyyətinin mövcud olması şərtini irəli sürmür...*

*"Möminlərlə bərabər bir ümmətdir" ifadəsi olduqca böyük əhəmiyyət daşıyır. Bu ifadədən onların (yəhudilərin) siyasi mənada (müsəlmanlarla) bir ümmət sayılması anlaşılır. "Yəhudilərin öz dini, müsəlmanların da öz dini vardır" ifadəsi isə cəmiyyətdəki fərqlilik nüansını göstərir ki, bu da yeni cəmiyyətin siyasi mənada vahid bir ümmət olacağını, eyni zamanda, inanc baxımından iki ümmətdən təşəkkül tapdığı üçün fərqli dini mənsubiyyətə sahib olacağını göstərir".*[77]

Həmçinin, Rəsulullah (s) Nəcran xristianlarına məktub yazaraq orada onların İslamın himayəsindəki tam hüquqlarını vurğulamışdır. Həmin məktubun mətni belədir:

*"Mehriban və bağışlayan Allahın adı ilə. Allahın peyğəmbəri Mühəmməddən yepiskop Əbu Harisə, həmçinin Nəcranın digər yepiskoplarına, kahinləri və onların ardıcıllarına və eləcə də rahiblərinə. Hazırda sahib olduqları (mal-mülkdən) az-çox nə varsa, həmçinin kilsələri və məbədləri onların özlərində qalacaqdır. Allah və Rəsulunun himayəsində (və ya qonşuluğunda) heç bir yepiskopun, rahibin və kahinin dəyişilməsinə müdaxilə olunmayacaqdır. Habelə onların heç bir hüququ, rəhbərliyi və mövcud olan heç bir adət-ənənələri dəyişilməyəcəkdir. Onlar öhdəliklərinə uyğun şəkildə zülm və haqsıqlıq etmədən səmimi olaraq sülhə sadiq qaldıqca Allah və Rəsulunun yanında (himayəsində amanda) olacaqlar".*[78]

Fərqli dinlərdən olmalarına baxmayaraq, cəmiyyətin hər bir fərdi üçün sosial təminat prinsipi təmin olunurdu. Əmirəlmöminin Əli ibn Əbu Talib (ə) xəlifəlik dövründə bir dəfə kor bir qoca kişinin diləndiyini

---

[76] İbn Hişam, "əs-Siirətun-nəbəviyyə (Peyğəmbərin tərcümeyi-halı)", c.2, səh.119-123.

[77] Şeyx Mühəmməd Mehdi Şəmsəddin, "Siyasi islami cəmiyyətdə", səh.290-302, birinci çap, Beyrut, 1992-ci il.

[78] Şeyx Hüseyn Əli əl-Müntəzəri, "Dirasat fi vilayətil-fəqih, c.2, səh.752, ikinci çap, Beyrut.

gördü və yanındakılara acıqlanaraq dedi: *"Bu nədir belə?"* Onlar: *"Xristiandır, ey Əmirəlmöminin"*, - deyə cavab verdikdə İmam (ə) buyurdu: *"Yaşlanıb aciz vəziyyətə düşənə qədər əməyindən istifadə etmiş, sonra da məhrum buraxmışsınız? Ona beytul-maldan (büdcədən) dolanışıq xərci verin!"*.

Bu hadisəni hədis alimi əl-Amuli öz kitabında aşağıdakı başlıq altında olan fəsildə qeyd etmişdir: *"Yaşlanaraq qazanc əldə edə bilməyəcək vəziyyətə düşmüş xristianın dolanışıq xərci beytül-maldan verilməlidir"*.[79]

İslam cəmiyyətində qeyri-müsəlmanın vəzifələrə və inzibati dövlət işlərinə yiyələnmək imkanları var idi. "Sünnilər arasında məşhur fiqhi rəy də qeyri-müsəlmanların İslam dövlətində vəzifələrdə işləmələrinin qanuniliyini göstərir. Bu, Əməvilər dövlətində də, Abbasilər dövlətində də və digərlərində də tətbiq olunmuşdur. Belə ki, həmin dövlətlərdə yəhudi, xristian və atəşpərəstlərdən olan insanların bəziləri İslam dövlətinin strukturunda çox əhəmiyyətli olan inzibati və maliyyə vəzifələrini tuturdular. Əbülhəsən əl-Mavərdi əş-Şafii (vəfatı 450 h.q.) və Əbu Yəla əl-Fərra əl-Hənbəli (vəfatı 458 h.q.) öz kitablarının "Səltənətin hökmləri" adlı bölməsində qeyri-müsəlmanın icra orqanlarında işləməsinin caiz olduğunu aydın şəkildə vurğulamışlar".[80]

Bu rəyi çağdaş şiə fəqihlərindən (şəriət alimi, İslam qanunvericiliyi üzrə mütəxəssis) biri Şeyx Mühəmməd Mehdi Şəmsəddin də dəstəkləyir.

İslam qanunları, fərqli dinlərdən olmalarına baxmayaraq, hamının hüquqlarını qoruyur. Tarix bir yəhudi vətəndaşın Əmirəlmöminin Əli ibn Əbu Talib (ə)-la bir qalxana görə mübahisəsini və İmam (ə)-ın bu səbəbdən yəhudi rəqibi ilə bərabər Şüreyh əl-Qazinin başçılığı ilə qurulmuş məhkəmə iclasına gedərək onunla yanaşı oturduğunu qeyd edir.[81]

İslamın öz övladlarına öyrətdiyi əxlaq və ədəb qaydaları, dinlərinin fərqliliyindən asılı olmadan, cəmiyyətin bütün üzvləri arasındakı münasibətdə keçərlidir, təkcə aralarındakı müsəlmanlara məxsus deyildir. Tarixdə qeyd olunur ki, bir dəfə İbn Abbasın oğlanlarından biri qoyun kəsmişdi. İbn Abbas ona dedi: *"Soyub qurtaranda (paylamağa) birinci*

---

[79] Mühəmməd ibn əl-Həsən əl-Amuli, "Vəsailuş-şiə, c.15, səh.66, birinci çap, Beyrut, "Alul-beyt" müəssisəsi, 1993.

[80] Şeyx Mühəmməd Mehdi Şəmsəddin, "İslamda hökumət və idarəetmə sistemi", səh.492, ikinci çap, Beyrut, 1991.

[81] Əllamə əl-Məclisi, daha öncə qeyd olunmuş mənbə, c.41, səh.56.

*yəhudi qonşumuzdan başla".* Sonra o, bu sözü o qədər təkrar-təkrar dedi ki, axırda oğlu: *"Bunu neçə dəfə deyəcəksən?"* – deyə dilləndi. İbn Abbas cavabında dedi: *"Bir dəfə Allahın Rəsulu (s) qonşunu bizə o qədər (təkrar-təkrar) tapşırdı ki, hətta qorxduq ki, axırda ona vərəsəlik haqqı da verəcək".* Bu məlumat göstərir ki, İbn Abbas bir yəhudi ilə qonşu olmuş və qonşuluq ehtiramını qorumaq üçün digər qonşuları kimi ona da pay verməyə önəm vermişdir. Bu isə o deməkdir ki, İslam əxlaqi dəyərlərdə və cəmiyyətin hüquqları məsələsində müsəlmanla hər hansı bir qarşı dinin mənsubu arasında fərq qoymur, hamı onun nəzərində bərabərdir.[82]

Ölüm Bağdaddakı İslam dövlətinin vətəndaşı, sabiilik dinin mənsubu Əbu İshaq əs-Sabii adlı bir sabii (ulduzpərəst) yazıçının (vəfatı 384 h.q.) ömür səhifəsini bağladıqda görkəmli müsəlman ədibləri onu oxşayan, istedadlarını sadalayan və məhsuldarlığını tərifləyən qəsidələr yazırdılar. Görkəmli ədib və alim Şərif ər-Rəzi Mühəmməd ibn əl-Hüseyn əl-Musəvi (vəfatı 406 h.q.) dostu Əbu İshaq əs-Sabiini bu janrda ən gözəl qəsidələrindən hesab edilən bir qəsidəsi ilə oxşayıb ağlamışdır. Həmin qəsidənin əvvəli belədir:

*Bildinmi çiyinlərdə aparılan kimdir?*
*Gördünmü cəmiyyətin işığı necə söndü?*
*Sanki bir dağ yıxıldı, əgər dəryaya düşsəydi səhərədək,*
*(Dərya) onun təsirindən durmadan köpüklənərdi.*
*Sənin torpağa (qəbrə) uzanmağından əvvəl bilməzdim ki,*
*Torpaq nəhəng dağları da üstələyərmiş.*[83]

Həmçinin, qardaşı ədib və dərin elmə malik olmuş böyük fəqih Şərif Mürtəza Əli ibn əl-Hüseyn əl-Musəvi (vəfatı 436 h.q.) də gözəl bir qəsidə ilə Əbu İshaq əs-Sabiini oxşamışdır. Qəsidə bu beytlə başlayır:

*Sənin (ölüm) günün, ey Əbu İshaq*
*Mənim üçün arzularla vidalaşmaqdan və hicrandan başqa bir şey deyildi.*

İslam qanunvericiliyində və ədəb qaydalarında fərqli dinlərdən olan vətəndaşlar arasında uyğunlaşma və birgəyaşayış vəziyyətinə dəyər verən məqamlara rast gəlirik. Dini fərqlilik sosial təminata və qarşılıqlı hörmətə mənfi mənada təsir göstərmir. Məsələn, yoxsul və ehtiyac içində olan şəxslər, dinləri və inanclarından asılı olmadan, cəmiyyətdən yardım

---

[82] Həsən əl-Qabanci, "Hüquq kitabının şərhi", c.2, səh.534, əl-Əzva mətbəəsi, 1991.
[83] Seyyid Mühsin əl-Əmin, "Əyan əş-şiə", c.9, səh.222, Beyrut, ət-Təaruf mətbəəsi, 1986.

almağa layiqdirlər. Çünki Allah-təalanın aşağıdakı ayəsinə əsasən sədəqənin istər zimmi,[84] istərsə də hərbi[85] yəhudi, xristian və ya atəşpərəstlərdən olan fasiq və kafirlərə verilməsi də caizdir:

***"Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya: Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər".***[86]

Və məlum olduğu kimi əsir hərbi kafir sayılır.[87]

Dini fərqlilik qazancların əldə edilməsində iştirakın, eləcə də inkişaf və məhsuldarlıq fürsətlərindən faydalanmağın qarşısını almır. Məsələn, kim sahibi olmayan, baxımsız bir əraziyə təşəbbüs göstərərək öz zəhməti və fəallığı ilə tikib abadlaşdırma, əkib-becərmə və ya torpaqdan istifadə etməyin buna bənzər üsulları ilə oranı canlandırsa, dirçəltsə, bununla həmin ərazinin sahibi olar.

*"Hər kəsin ölmüş torpağı canlandırması əslən caizdir və (dini mətnlərdən) canlandıran şəxsin, müsəlman və ya kafir olması arasında fərq qoyulmadan, oraya sahib olması anlaşılır".*[88]

Digər müsəlmanlarda da (hənəfilər, malikilər və hənbəlilərdə) torpağı canlandıranın müsəlman olması şərt deyil, Peyğəmbər həzrətlərinin (s) *"kim ölmüş bir yeri canlandırsa, ora onundur",* – kəlamının ümumiliyinə əsasən, canlandıran şəxsin müsəlman və ya zimmi olması arasında fərq yoxdur. Çünki canlandırmaq, diriltmək mülkiyyət hüququ verən amillərdəndir və müsəlmanla zimmi mülkiyyət hüququ verən başqa amillərdə olduğu kimi, bunda da bərabərdirlər.[89]

İsveçrədəki Bazel Universitetinin şərq dilləri üzrə professoru, Alman tədqiqatçı Adam Metz (1917-ci ildə vəfat etmişdir) "Hicri dördüncü əsrdə İslam sivilizasiyası" kitabında müsəlmanların həyatındakı dini fərqlilik gerçəkliyi ilə bağlı heyrətamiz nümunələr qeyd etmişdir. Onlardan bəzi məqamları nəzərinizə çatdırırıq:

---

[84] Cizyə ödəməklə müsəlman dövlətinin himayəsində hüquqi vətəndaş olaraq yaşayan qeyri-müsəlman (müt.).
[85] Müsəlmanlarla müharibə və düşmənçilik edən kafir (müt.).
[86] əl-İnsan, 8.
[87] Dr. Vahbə əz-Zuheyli, "İslam şəriəti və dəlilləri", c.2, səh.920, üçüncü çap, Dəməşq, əl-Fikr mətbəəsi.
[88] Seyyid Mühəmməd ər-Ruhani, "Minhac əs-salihin, müamələt bölməsi, ölmüş yerləri dirçəltmək mövzusu, 673-cü məsələ, ikinci çap, Beyrut, əz-Zəhra mətbəəsi.
[89] Dr. əz-Zuheyli, daha öncə qeyd olunmuş mənbə, c.5, səh.559.

Coğrafi tarixçi Şəmsəddin əl-Müqəddəsi (hicri 380-ci ildə vəfat etmişdir) İslam ölkəsi olan Şirazda atəşpərəstlərin vəziyyətindən danışarkən deyir:

*"Orada heç bir atəşpərəstdə onu fərqləndirən ğiyar*[90] *görmədim.*

*Bazarlar kafirlərin bayramlarında da bəzədilirdi.*

*Hicri 371-ci ildə (981 m.) sufilərin böyüklərindən biri vəfat etdikdə müsəlmanlar, yəhudilər və xristianlar bərabər şəkildə onun dəfnində iştirak etdilər".*[91]

*İslam qanunvericiliyində iş və peşə qapılarının heç biri zimmilərin üzünə bağlı deyildi. Zimmilər bol mənfəət gətirən peşələrdə yerlərini möhkəmkəndirmişdilər və buna görə də onlar puldəyişənlər, tacirlər, ərazi sahibləri və həkimlər idilər. Zimmilər özlərini elə kökləmişdilər ki, məsələn, Şamda puldəyişənlərin və elm adamlarının əksəriyyəti yəhudilər, həkimlərin və yazarların əksəriyyəti isə xristianlar idilər. Bağdaddakı xristianların başçısı da xəlifənin həkimi idi.*[92]

*İslam hökuməti zimmilərin dini ayinlərinə müdaxilə etmirdi. Hətta bəzi xəlifələrin onların yürüşlərində, bayram şənliklərində iştirak etdiyi və bu mərasimlərin qorunub saxlanmasına göstəriş verdiyi də bildirilir. Yağışların kəsildiyi quraqlıq günlərdə isə hökumət başda yepiskopları olmaqla xristianların və şeypur çalanları ilə bərabər yəhudilərin də iştirak etdiyi yürüşlər təşkil edilməsinə göstəriş verirdi.*[93]

*Adətən hər dinin mənsubları bir-birinə yaxın yaşamağa üstünlük versə də, İslam şəhərlərində yəhudi və xristianlara məxsus və oradan kənara çıxa bilməyəcəkləri ayrıca məhəllələr mövcud deyildi. Xristian monastırları Bağdadın hər yerinə yayılmışdı və demək olar ki, şəhərin monastır olmayan hissəsi yox idi.*[94]

*İslam qanunları təkcə müsəlmanlara xas deyildi, İslam dövləti başqa dinlərin mənsubları ilə onların öz məhkəmələri arasında sərbəstlik yaratmışdı. Bu məhkəmələrin fəaliyyəti haqqında bildiyimiz odur ki, bunlar kilsə məhkəmələri idi və bu məhkəmələrin ruhani rəhbərləri baş qazilər kimi də xidmət edirdilər. Onlar bir çox qanunnamələr yazmışdılar*

---

90 Ğiyar zimmiləri fərqləndirən əlavə geyimə deyilirdi. Atəşpərəstlərdə bu, belə bağlanan qurşaq idi (müt.).

91 Adam Menz, "Hicri dördüncü əsrdə İslam sivilizasiyası", c.1, səh.85, beşinci çap, əl-Kitab əl-ərəbi mətbəəsi.

92 Eyni mənbə, səh.86.

93 Eyni mənbə, səh.88.

94 Eyni mənbə, səh.93.

*və hökmləri təkcə evlilik məsələləri ilə məhdudlaşmır, həm də miras məsələlərini, eləcə də yalnız xristianlarla əlaqəli olan və dövlətə aidiyyatı olmayan əksər mübahisələri də əhatə edirdi.*[95]

*Heyran olduğumuz şeylərdən biri İslam dövlətində qeyri-müsəlman işçi və idarəçilərin sayının çoxluğu idi. Sanki İslam məmləkətində xristianlar müsəlmanlara rəhbərlik edirlər. Zimmilərin müsəlmanların rifahı və pulları üçün təhkim olunmalarından edilən şikayətlər artıq köhnə şikayətlərdi...*

*Müsəlman Qoşunlarının hərbi tribunalına (hicri) üçüncü əsrdə iki dəfə xristian şəxs rəhbərlik etdi...*

*Xristian və yəhudi idaərəçilərin eynilə müsəlmanlar kimi and içmək hüquqları vardı*[96]*. Hicri 840-cı ildə (1436 m) yazılmış "Divan əl-inşa" (Quruculuq məhkəməsi) kitabında yəhudilərin o dövrdə içdikləri andın mətni də yer almışdır. Həmçinin, həmin kitabda bu and hüququnu yəhudilər üçün ilk tanıyan şəxsin xəlifə Harun ər-Rəşidin vəziri Fəzl ibn ər-Rəbii olduğu da qeyd olunmuşdur.*[97]

## Bir ümmət və çoxsaylı millətlər

Allah-təala peyğəmbərlərin sonuncusu olmaq və ilahi dinlərin sonuncusu olan İslamı bəşəriyyətə çatdırmaq üçün ən hörmətli ərəb ailəsinin övladını, Öz ərəb peyğəmbəri həzrət Mühəmmədi (s) seçdi və Allahın hikməti bu dinin dilinin ərəb dili olmasını istədi:

***"Onu Cəbrail (Ruhuləmin) endirdi:***

***(Günahkarları Allahın əzabı ilə) qorxudan (xəbərdar edən) peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi);***

***Özü də açıq-aydın ərəb dilində".***[98]

Beləcə, İslam Ərəbistan Yarımadasında meydana çıxdı və onun üçün başlanğıc mühit və yayılma mənbəyi ərəb cəmiyyəti oldu. Lakin bütün bunlar İslamın ərəblərlə məhdudlaşması anlamına gəlmir, əksinə bu, Allahın bütün bəşəriyyətə göndərdiyi və qiyamət gününə qədər qüvvədə qalacaq hərtərəfli dinidir:

---

95 Eyni mənbə.

96 İslamın məhkəmə və istintaqla bağlı qanunları bəzi hallarda tərəflərə haqlı olduqlarını and içərək isbat etmək hüququ verir (tər.).

97 Eyni mənbə, səh.105-106.

98 əş-Şuəra, 193-195.

***"(Ya Rəsulum!) Biz səni (təkcə öz qövmünə deyil) bütün insanlara göndərdik".***[99]

***"Səni də (Ya Rəsulum!) aləmlərə ancaq bir rəhmət olaraq göndərdik".***[100]

Bu səbəbdən İslamın dəyərləri, anlayışları və təlimləri bütün millətləri, irqləri və xalqları əhatə edən qlobal bir insani üfüqə malikdir. İslamın başlanğıcından ona ilk iman gətirən və onun uğrunda cihad edən, vuruşan elita özündə müxtəlif irqlərin və millətlərin nümayəndələrini birləşdirirdi. Bu da irqi və milli fərqlilik əsasında İslam cəmiyyətini qurmaq üçün bir təməl və zəmin idi. İslamın ilk binasını inşa edən həmin parlaq simalar arasında Qüreyş və Yəsribdən (Mədinədən) olan ərəb səhabələrlə yanaşı Salman Farsini, Süheyb Rumini və Bilal Həbəşini də görürük.

**Farisdən (İrandan)**

Salman Farsi İslam dövlətini (Mədinəni) müşriklər və yəhudilər ittifaqının yeni yaranmış İslam qüvvələrini aradan aparmaq və İslamın mərkəzini istila etmək üçün həyata keçirmək istədiyi geniş hücumdan qorumağın planlaşdırılmasında əhəmiyyətli bir rol oynadı. Müttəfiq tərəflərin ordusunun qüvvələri təxminən 10 min döyüşçü olduğu halda, müsəlman döyüşçülərin sayı 3 min civarında idi. Müsəlmanlar öz şəhərlərini müdafiə etmək mövqeyində dayanmış, müşriklər isə hücum vəziyyətində idilər və buna çox hazırlaşmışdılar. Əgər onların qüvvələri Mədinəni işğal edə bilsəydi, İslam hərəkatına mane olar və elə o dövrdəcə İslam dövlətinin qurulmasına imkan verməzdilər. Allahın Rəsulu (s) səhabələrini toplayıb təhlükəli vəziyyətlə bağlı onlarla məsləhətləşdikdə Salman Farsi fars xalqının təcrübələrinə əsaslanaraq öz təklifini irəli sürdü: *"Ey Allahın Rəsulu, onlarla bizim aramızda maneə olacaq bir xəndək qazaq, üzərimizə hər tərəfdən gəlmələri mümkün olmasın. Biz əcəmlər Faris məmləkətində düşmənin hücumuna məruz qaldığımız zaman xəndəklər qazardıq ki, döyüşlər bəlli hissələrdə olsun".*[101]

---

[99] Səba, 28.

[100] əl-Ənbiya, 107.

[101] Şeyx Cəfər Sübhani, "Mürsəl peyğəmbərlərin ağasının həyat tarixçəsi", c.2, səh.251, Beyrut, əl-Bəyan əl-ərəbi mətbəəsi, 1992.

Həzrət Rəsulullah (s) və müsəlmanlar bu planı qəbul edib Mədinənin ətrafında xəndək qazmağa başladılar və nəticədə düşmənlərin planı uğursuzluğa düçar oldu.

Vaqidi adı ilə məşhur olan tarixçi Mühəmməd ibn Ömər ibn Vaqid (hicri 207-ci ildə vəfat etmişdir) Salman Farsinin o dövrdə müsəlmanlar arasında xüsusi mövqeyinin olduğunu göstərən bir məlumatı nəql eədərək deyir:

*"Həmin gün insanlar (xəndək qazarkən) Salman Farsini öz dəstələrinə götürmək üçün yarışdılar. Mühacirlər dedilər:"Salman bizdəndir". Çünki o, həm qüvvətli, həm də xəndək qazmaqda təcrübəli idi. Ənsarlar isə:"O bizdəndir, bizim onu aramıza götürməyə daha çox haqqımız çatır", - dedilər. Onların bu sözləri Peyğəmbərin (s) qulağına çatanda Həzrət buyurdu: "Salman biz əhli-beytdəndir". Həmin gün Salman on nəfərin işini görürdü".* [102]

Sonrakı illərdə Salman xəlifə Ömər ibn Xəttab tərəfindən İraqın Mədain şəhərinə vali təyin edildi.

**Həbəşistandan**

Bilal özü haqqında deyirdi: *"Mən bir həbəşiyəm... Dünən bir kölə idim".*

Lakin Bilal ibn Rəbah əl-Həbəşi işgəncə və əzab-əziyyətə məruz qalmasına baxmayaraq İslamda qalmaq üçün göstərdiyi əzmkarlığı və Allah Rəsulunun (s) azan hökmünün nazil olmasından sonra ona verdiyi xüsusi rolu ilə – rəsmi azançı olması ilə İslam tarixində ölməz bir mövqe tutdu. Həbəşistanlı qara bir kölə olan Bilalın Məkkənin fəthindən sonra azan vermək üçün Kəbənin üstünə çıxdığını seyr etmək qüreyşlilər üçün nə qədər də çətin idi. Hətta həmin vaxt hələ də İslamı qəbul etməmiş İtab ibn Üseyd belə demişdi: *"Allahın (atam) Üseydə rəhmi gəldi ki, o, bunu (Bilalın Kəbənin üstünə çıxmasını) görmədi və ondan qəzəblənəcəyi şeyləri (azan verməsini) eşitmədi".*

Lakin bu, insanlar arasında irqlərinə və milliyyətlərinə görə fərq qoymayan İslamın ümumbəşəriliyi və insanpərvərliyidir. Professor Xalid Mühəmməd Xalid deyir:

*"İslamın başlanğıcından bu günə qədər olan və bu gündən sonra da görəcəyimiz hər on müsəlmandan ən azı yeddisi Bilalı tanımış və tanıyır.*

---

[102] Vaqidi, " əl-Məğazi (Peyğəmbərin döyüşləri)", c.2, səh.446, üçüncü çap, Beyrut, əl-Əələmi müəssisəsi, 1989.

*Yəni əsrlər boyu nəsillər dəyişdikcə yüz milyonlarla insan İslamdakı iki böyük xəlifə Əbu Bəkr və Öməri tanıdığı kimi Bilalı da tanımış, adını əzbərləmiş və onun rolunu bilmişdir. Əgər Misirdə, Pakistanda, Malaziyada, Çində, hər iki Amerikada, Avropada, Rusiyada, İraqda, Suriyada, Türkiyədə, İranda, Sudanda, Tunisdə, Əlcəzairdə, Mərakeşdə və Afrikanın dərinliklərində, Asiyanın dağlarında, ümumiyyətlə, müsəlmanların yaşadığı hər bir bölgədə hələ təhsilinin ibtidai mərhələsində olan hər hansı bir müsəlman uşaqdan:"Bilal kimdir?" – deyə soruşsan, cavabında sənə deyəcək: "O, Peyğəmbərin azançısı, dindən çıxması üçün ağası tərəfindən qaynar daşla işgəncə verilmiş, amma cavabında ancaq "əhədun, əhəd (Allah təkdir tək)" demiş quldur".*[103]

**Rumdan (Bizansdan)**

Kiçik yaşlarından Rumun mərkəzində böyüyüb boya-başa çatmışdı. Çünki rumlular onu lap uşaq yaşlarından Şamın ətrafında (indiki İraq ərazisində) yerləşən əl-Əblə ərazisinə basqınları zamanı ailəsinin digər üzvlərilə bərabər əsir tutub gətirmiş və beləliklə dili, ləhcəsi və tərbiyəsi ilə bizanslı olmuşdu. Sonra Süheyb ər-Rumi kölə alverçiləri vasitəsilə qul kimi satıldı və Məkkə tacirlərindən biri tərəfindən alınması nəticəsində bu müqəddəs şəhərə gəlib çıxdı. Zəkası və ticarət bacarığına görə ağası Süheybi azad etdi və ona ortaq şəkildə ticarət işi görmək imkanı yaratdı. Beləliklə o, böyük bir sərvətə sahib oldu və Məkkədə İslamın çətin sınaq dövründə ilk müsəlmanların şəraitinin ağır və durumlarının acınacaqlı olmasına rəğmən Allah onu İslama yönəltdi. Həzrət Peyğəmbərimiz (s) Mədinəyə hicrət edərkən Süheyb özünü ona yetirməyə tələsdikdə Qüreyşin əzazilləri onun yolunu kəsərək dedilər: *"Sən bizim yanımıza zəif və yoxsul bir vəziyyətdə gəldin, pulun, sərvətin bizim yanımızda çoxaldı və bu vəziyyətinə bizim aramızda çatdın, indi də canını və malını götürüb aradan çıxırsan?"* Bütün pullarını və sərvətini onlara vermədən hicrət etməsinə icazə vermədilər. Süheyb isə bu məsələdə tərəddüd etmədi və özünü Allahın Rəsuluna yetirdi. Rəsulullah (s) onu bu sözlərlə qarşıladı: *"Ticarətin uğurlu oldu, ey Əbu Yəhya (Süheybin künyəsi)!"*[104]

Süheyb ər-Rumi İslam cəmiyyətində böyük bir məqam sahibi oldu. Hətta xəlifə Ömər ibn Xəttab ömrünün son anlarında ona cənazə

[103] Xalid Mühəmməd Xalid, "Peyğəmbərin atrafındakı kişilər", səh.117, Qahirə, əl-Kutub əl-hədisə mətbəəsi, 1968.
[104] Eyni Mənbə, səh.187.

namazını Süheybin qılmasını və eləcə də müsəlmanlar özlərinə imam seçənə qədər camaat namazlarına imamlıq etməsini vəsiyyət etdi.[105]

Beləcə müxtəlif irqlər və millətlərin nümayəndələri İslam cəmiyyətinin formalaşmasında və dövlət quruculuğunda iştirak etdilər. Həzrət Rəsulullahın (s) belə buyurduğu rəvayət olunur: *"(Haqqı qəbul etməkdə) öncüllər dörd nəfərdir; mən ərəblərin öncülüyəm, Süheyb rumluların, Bilal həbəşilərin və Salman da farsların öncülüdür".*[106]

Bu müxtəlif irqlərin nümayəndələrini özünə cəlb edən, onları bir iman qazanında əridən (vahid iman bayrağı altında birləşdirən) məhz İslamın dəyərləri və onun ümumbəşəri insani təlimləridir. Bu dəyərlər və ümumbəşəri təlimlər bacarıqların üzə çıxmasına və hər bir insanın, irqinə, dilinə və rənginə baxmadan, cəmiyyətdə öz mövqeyini tutmasına, bacarığı və imanı ilə öz rolunu icra etməsinə təşviq edir. Əlbəttə ki, qəbilə təəssübkeşliyi və irqi mənsubiyyətlər əsasında idarə olunan o mühitdə bu heç də asan və rahatlıqla başa gəlmədi. Ancaq İslam anlayışları və lider Rəsulullahın (s) doğru yola yönləndirən mövqeləri yeni bir mühit yaratdı və yeni mədəniyyət işığı saçdı.

Hafiz ibn Əsakir belə bir məlumatı nəql edir: *"Bir dəfə Qeys ibn Mətatiyyə aralarında Salman Farsi, Süheyb Rumi və Bilal Həbəşinin də olduğu bir dəstənin yanına gəldi və dedi: "Ous və Xəzrəc bu kişiyə (yəni Peyğəmbərə (s)) kömək etdilər. (Aralarındakı qeyri-ərəblərə işarə edərək) bəs bunun və bunun barəsində nə demək olar?" Məaz ibn Cəbəl (Allah ondan razı olsun) ayağa qalxıb paltarından tutaraq onu Peyğəmbər həzrətlərinin yanına gətirdi və onun dediklərini Həzrətə söylədi. Bundan qəzəblənən Peyğəmbər (s) ayağa durub əbasını çəkə-çəkə Məscidə gəldi və az sonra:" Namaza toplanın", - deyə car çəkildi (bəzi mühüm vəziyyətlərdə camaatın tolanması üçün belə car çəkilirdi). Camaat tolandıqdan sonra Həzrət onlara bu sözləri söylədi:*

*"Ey insanlar! Həqiqətən, Rəbb birdir, din birdir, hər hansı birinizin ərəbliyi nə atasından, nə də anasından deyil ("hamınız Adəmdən, Adəm də torpaqdan yaranmışdır" hədisinin məntiqinə uyğun olaraq (müt.)), bu, sadəcə, bir dildir, ona görə də kim ərəbcə danışırsa o ərəbdir"".*[107]

Cabir ibn Abdullah əl-Ənsarinin belə dediyi nəql olunur:

---

[105] İbn Həcər əl-Əsqalani, "əl-İsabə fi təmyiz əs-səhabə, c.3, səh.451, Beyrut, əl-Cil mətbəəsi, 1992.
[106] Eyni mənbə.
[107] Məhəmməd əl-Ğəzali, "Ərəb millətçiliyinin gerçəkliyi", səh.22, Küveyt, əl-Bəyan mətbəəsi.

*"Rəsulullah (s) təşriq günlərinin (Qurban bayramından sonrakı üç gün) ortasında bizə vida xütbəsi söyləyərək buyurdu:"Ey insanlar! Həqiqətən, sizin Rəbbiniz birdir, atanız birdir, nə ərəbin əcəm üzərində, nə də əcəmin ərəb üzərində, habelə nə ağın qara üzərində, nə də qaranın ağ üzərində təqvadan başqa heç bir üstünlüyü yoxdur, sizin Allah yanında ən hörmətli olanınız ən təqvalı olanınızdır (Allahdan ən çox qorxanınızdır). Bunu sizə çatdıra bildinmi?" Hamı: "Bəli, ey Allahın Rəsulu", - deyə cavab verdikdə Həzrət buyurdu:"Şahid olanlar burda olmayanlara da çatdırsınlar".*[108]

**İslam xalqlara və millətlərə qucaq açır**

İslamın ümumbəşərilik dairəsi özündə müxtəlif irqləri və millətləri əhatə edəcək qədər genişləndi və bu səbəbdən İslam ümməti vahid dəyərlər altında yaşayan, yüksək səviyyəli bir insan sivilizasiyası qurmaq üçün bir-birilə əməkdaşlıq edən müxtəlif irqlər və millətlərdən təşəkkül tapdı. Nəticədə rumlular, farslar, türklər, hindlər, zəncilər, bərbərlər (daha çox indiki Əlcazairdə yaşayan bir millət), kürdlər və bəşər övladının digər qruplarından olanlar İslamı qəbul etdilər. Müxtəlif xalqlar və millətlər İslam sivilizasiyasının qurulmasına öz töhfələrini verdilər. İslamın tanınmış simaları və bariz şəxsiyyətlərinin yazdıqları əsərlərə nəzər salsaq, onların Əfqani, Zəməxşəri, Buxari, Səmərqəndi, Bağdadi, Hələbi, Şirazi, Qəlqəşəndi, İsfahani, Qiyrəvani və Qurtubi kimi, müxtəlif regionlar, millətlər və irqlərin nümayəndələrinə aid olduğunu görərik. 1995-ci ildə ingilis tədqiqatçı Filip Mansell Osmanlı İslam Dövlətinin tarixinin bir yönündən bəhs etdiyi *"Konstantinopol, dünyanın rəğbətini qazanmış şəhər (1924 m, 1453 h.q.)"* adlı bir kitab nəşr etdirdi. Kitabın fəsillərində müəllif bizə Konstantinopolun həmişə Osmanlı hakimiyyəti altında kosmopolit xarakterli bir şəhər olduğunu dəfələrlə xatırladır. İmperatorluq öz şöhrətinin zirvəsində olduğu dövrdə 72 millət və yarımmilləti ehtiva edirdi (qaraçılar yarımmillət hesab olunurdu). 1876-cı ildə şəhərdə aralarında türk, yunan, ərəb, ingilis və fransız dilləri də olan 11 dildə 49 qəzet çıxırdı.[109]

Tədqiqatçılardan biri qeyd edir ki, İslam ümməti hazırda yüzlərlə dildə və ləhcələrdə danışan 190 millətdən ibarətdir.[110]

---

[108] Şeyx Mühəmməd Rey Şəhri, "Mizan əl-hikmə", c.1, səh.629, birinci çap, əl-İlam əl-islami dəftərxanası, 1405 h.q.

[109] Suzanna Tarbuş, "əl-Həyat" qəzetində məqalə, London, 16.11.1995

[110] Mühəmməd əs-Səmmak, əl-Vəəy əl-İslami jurnalında "Hədəf İslamdırmı?" başlıqlı araşdırma, Küveyt, 338-ci sayı, 1414 h.q.

**Dillərin qanuniliyi**

Düzdür, ərəb dili Allah-təalanın “açıq-aydın ərəb dilində” nazil etdiyi Quranın dilidir və Quranı başa düşə, onun mənalarını anlaya və bəlağətli ifadələrinin şirinliyini dada bilməsi, eləcə də müsəlmaların ünsiyyət qura biləcəyi vahid bir dilin olması üçün hər hansı bir millətdən olan müsəlmanın ərəb dilini öyrənməsi bəyəniləndir. Lakin bu heç də digər dillər üçün hər hansı bir məhdudiyyətin, maneənin olması demək deyil. İslamda hər bir insan öz dilini və ya istədiyi hər hansı bir dili istifadə etməkdə sərbəstdir. Fiqhi baxımdan da şəriət müqavilə və sazişlərin istənilən dildə olmasını qəbul edir. Namaz kimi ibadət məsələlərinə gəlincə isə bu, birbaşa ilahi göstərişlərlə müəyyən olunduğu üçün şəriət alimləri onun ərəb dilində yerinə yetirilməsini şərt bilmişlər. Bununla belə, hənəfilik təriqətinin imamı Əbu Hənifə namazda təkbirətul-ehramın (namaza başlamaq üçün deyilən ilk təkbirin) başqa dildə deyilməsinə icazə vermişdir. Şafiilər də təkbiri ərəbcə yaxşı deyə bilməyənlərin onu başqa dildə deməsini düzgün hesab edirlər.[111] Eləcə də hənəfilərin bir qismi namazda fatihə surəsini ərəbcə oxuya bilməyən şəxsin onu başqa dildə oxumasını caiz hesab etmişdir. [112] İslamın əhli-beytdən olan imamları (ə) öz dövrlərindəki İslam xalqlarının dillərində səlis danışır və onlarla öz dillərində ünsiyyət qururdular.[113]

**İctimai inteqrasiya**

Rəsulullah (s) ictimai münasibətlərdə millətçilik və tayfabazlıq təəssübkeşliyi ilə üzləşdi və müsəlmanları irqləri, milliyyətləri və tayfalarından asılı olmadan bir-birlərilə qarşılıqlı əlaqə qurmağa və öz aralarında inteqrasiya etməyə təşviq etdi. Peyğəmbərin qaradərililərdən olan Cuveybirlə qədim bir ərəb nəslindən olan Ziyad ibn Vəlidin qızı Dulfanı evləndirməyə can atması ilə İslam evlilik məsələsində milliətçilik və tayfabazlıq maneələrini aşan mühüm bir qayda qoymuş oldu. Belə ki, Həzrət (s) onun atası Ziyada dedi: *“Ey Ziyad, Cuveybir mömindir, mömin kişiyə möminə xanım layiqdir, müsəlman kişiyə də müsəlman xanım, (qızını) ona ərə ver, ey Ziyad, ondan imtina etmə!”*[114]

İmam Cəfər Sadiq (ə) buyurur: *“Rəsulullah (s) Miqdad ibn Əsvədi Əbdülmüttəlibin oğlu Zübeyrin qızı Zubaə ilə evləndirdi. Onları ona görə*

---

[111] əz-Zuheyli, daha öncə qeyd olunmuş mənbə, c.1, səh.634.

[112] Eyni mənbə, səh.655.

[113] Əllamə Məclisi, daha öncə qeyd olunmuş mənbə, c.26, səh.190.

[114] əl-Amuli, daha öncə qeyd olunmuş mənbə, c.20, səh.68.

*evləndirdi ki, evlilik meyarları aydınlaşsın və (insanlar) Allahın Rəsulundan nümunə götürsünlər və bilsinlər ki, Allah yanında ən hörmətliləri ən təqvalı olanlarıdır”.*[115]

Xəvariclərdən biri Hişam ibn Həkəmlə görüşdü və ona dedi:*”Ey Hişam, əcəm haqqında nə deyirsən, ərəblərlə evlənmələri caizdirmi?”* Hişam: “*Bəli”*, - deyə cavab verdikdə yenə soruşdu:*”Ərəblərin qüreyşlilərlə evlənməsi necə, caizdir?”* Hişam:*”Bəli”*, - dedi. Adam bir daha soruşdu:*”Qüreyşlilər də Bəni-Haşimlə (Peyğəmbərimizin nəsli) evlənə bilər?* Hişam cavabında yenə:*”Bəli”*, - dedi. Adam bu dəfə təəccüblə:*”Bunu kimdən öyrənmisən?”* – deyə sual verdi. Hişam dedi:*”Cəfər ibn Mühəmməd (ə)-dan, onun belə buyurduğunu eşit-dim:“(Qisas və diyələrdə) qanınız bərabər olduğu halda evlilikdə niyə bərabər olmayasınız?!”*[116]

Bir qrup tarixçi və ravilər nəql edirlər ki, İmam Əmirəlmöminin Əli ibn Əbu Talib (ə) xilafətə gəldikdə Hüreys ibn Cabiri Şərqin bir tərəfinə vali təyin etmişdi. Hüreys fars şahı Yəzdəcird ibn Şəhriyarın iki qızını (əsir olaraq) İmam (ə)-a göndərdikdə Həzrət qızlardan biri Şahzənanı oğlu İmam Hüseyn (ə)-la evləndirdi və bu xanım İmam Hüseyn üçün İmam Zeynulabidin (ə)-ı dünyaya gətirdi. İkinci qızı isə (oğulluğu) Mühəmməd ibn Əbu Bəkrlə evləndirdi və bu xanım da Mühəmməd üçün məşhur fəqih Qasimi dünyaya gətirdi. [117]

Beləcə, müxtəlif irqlər və millətlərdən olan müsəlmanlar arasında evlilik əlaqələri və qarşılıqlı ailə bağlılıqları mövcud idi.

### Xalqların adət və ənənələri

İslam xalqlarının hər biri İslamın təlimlərinə və anlayışlarına zidd olmayan adət və ənənələrini qoruyub saxlamışdır. Farslar şəmsi təqviminin yeni ilini qeyd edir və bunu yeni gün mənasını verən “Novruz bayramı” adlandırırdılar. Bir dəfə Əmirəlmöminin Əli ibn Əbu Talib (ə)-a novruz hədiyyəsi gətirdilər. Həzrət:*“Bu nədir?”* – deyə soruşduqda dedilər: *“Ey Əmirəlmöminin, bu gün Novruzdur”*. İmam (ə) buyurdu: *“Elə isə hər günümüzü Novruz edin”*.[118]

---

[115] Eyni mənbə, səh.69.

[116] Eyni mənbə, səh.70.

[117] Baqir Şərif əl-Qərəşi, “İmam Zeynulabidinin həyatı”, c.23, birinci çap, Beyrut, əl-Əzva mətbəəsi, 1988.

[118] Rey Şəhri, daha öncə qeyd olunmuş mənbə, c.7, səh.132.

*“Günəş ilinin başlanğıcı olan Novruz bayramını qarşılıqlı hədiyyələrlə qeyd etmək ümumi bir adət idi. Bağdaddakı xəlifə camaata bəzi hədiyyələr, məsələn, ənbərlə hazırlanmış xoş ətirli şəkillər (suvenirlər) və qızılgül paylayırdı. Buxaradakı Samani padşahları həmin gündə öz sərkərdələrinə rəsmi şəkildə yaz və yay mükafatları verirdilər. Fatimilərin xəlifələri isə camaata geyim və yemək hədiyyə edirdilər”.*[119]

**Müxtəlif millətlərdən olan rəhbərlər**

Siyasi sahədə ümmətdə siyasi liderlik rolunu oynamış müxtəlif millətlərdən olan şəxsiyyətlər var. İlk Abbasilər dövründə farslardan olan Bərməkilərin hökumət sükanının idarə edilməsində və hakimiyyət işlərinin aparılmasında böyük rolu olmuşdur. İlk Abbasi xəlifəsi Səffahın dövründən (132-136 h.q.) vəzirlik vəzifəsinə yüksələn Xalid ibn Bərmək xəlifə Mənsur əl-Abbasinin hakimiyyəti dövründə də bu vəzifədə qalmağa davam etdi. Sonra isə oğlu Yəhya ibn Xalid Bərməki Harun ər-Rəşidin dövründə vəzirlik vəzifəsinə yiyələndi. Yəhyanın dörd oğlu vardı; Cəfər, Fəzl, Mühəmməd və Musa. Onların da hər birinin hakimiyyətdə təsirli rolu və mövqeyi vardı. Bərməkilərin siyasi rolu hicri 187-ci ilə, Harun ər-Rəşidin onlara qəzəblənib qəflətən onları qətlə yetirməsinə qədər davam etdi.

Məmun əl-Abbasinin xəlifəlik dövrünün əvvəllərində isə yenə də farslardan olan Fəzl ibn Səhl və qardaşı Həsən ibn Səhlin dövlət rəhbərliyində mühüm rolu vardı və Fəzl ibn Səhl həm vəzir, həm də ordunun başçısı olduğu üçün “Zurriasəteyn” (iki rəhbərlik sahibi) adlandırılmışdı.

Xəlifə Mötəsim əl-Abbasinin dövrünə gəlincə, bu dövrdə türklər orduya və hakimiyyət işlərinə rəhbərlik etməkdə böyük nüfuza sahib idilər. Onların bu aşkar rolu hicri 232-ci ildən 324-cü ilə qədər davam etdi.

İkinci Abbasilər dövrünün sonlarında isə türkmənlərdən olan Səlcuqlar hicri 447-ci ildən 656-cı ilədək üstün nüfuza və nəzarətə sahib idilər.

Osmanlı türkləri hicri 923-cü ildən 1342-ci ilədək, yəni təxminən dörd əsr İslam ümmətinin siyasi rəhbərliyinə sahib oldular və elə onların hakimiyyətinin süqut etməsi ilə də İslam xilafəti sona çatdı və ümmətin birliyi dağıldı.

---

[119] Metz, daha öncə qeyd olunmuş mənbə, c.2, səh.293.

Elmi səviyyədə ümmətdə müxtəlif millətlərdən elmi istedadlar üzə çıxdı və elm və mədəniyyət hərəkatının rəhbərliyində öz mövqelərini tutdular. Hətta Əllamə İbn Xəldun məşhur Müqəddiməsinin 35-ci fəslinə *"İslamda elm sahiblərinin əksəriyyəti əcəmdəndi"* başlığını vermişdir. Həmin fəslin bir yerində bu sözləri deyir:

*"Qəribədir ki, reallıqda həm şəriət elmlərində, həm də rasional elmlərdə, nadir hallar istisna olmaqla, İslam ümmətindəki elm sahiblərinin əksəriyyəti qeyri-ərəblərdir..."*

*Nəhv (sintaksis) elminin yaradıcıları olan Siyboveyh də, ondan sonrakı Farsi də və onlardan sonrakı Zəccac da hamısı mənsubiyyətcə əcəmdirlər, sadəcə, onlar ərəb dili ilə bəslənib böyümüş, onu bu bəslənmə və ərəblərlə qaynayıb- qarışma sayəsində mənimsəmiş, sonra isə özlərindən sonrakılar üçün bu dilə qanun-qaydalar tərtib etmiş, müxtəlif gözəlliklər vermişlər. Eyni şey, İslam ümmətinin hədislərini hifz edib saxlayan hədis alimlərinə də aiddir. Belə ki, onların da çoxu əcəm, ya da ərəb dilini yaxşı bilməyənlərdir. Üsul-fiqh alimlərinin məlum olduğu kimi hamısı, eyni zamanda kəlam elminin daşıyıcıları və əksər təfsirçilər də əcəm olmuşlar. Elmin qorunması və yazılmasını yalnız əcəmlər öz üzərlərinə götürmüşlər və beləcə Peyğəmbərin (s) bu kəlamı öz təsdiqini tapmış oldu:"Əgər elm göydə olsaydı, onu Farisdən (İrandan) olan bəzi insanlar əldə edərdi"".*[120]

Bəlkə də İbn Xəldunun sözündə bir qədər mübaliğə ola bilər, lakin fiqh, hədis və müxtəlif elmlərin bir çox imamlarının əcəmdən olması açıq-aydındır. Məsələn, hənəfi məzhəbinin imamı İmam Əbu Hənifə fars soyundandır. Səhih əl-Buxari kitabının sahibi İmam Buxari, eləcə də Tirmizi, İbn Macə, Nisai, Səcistani və digərləri də əcəmdir.

**Sabit əsaslar və məzhəb fərqliliyi**

Müsəlmanlar öz dinlərinin ideoloji və fiqhi məsələlərini anlamaqda iki əsas mənbəyə etimad edirlər: Allahın kitabı və Rəsulunun sünnəsi (Həzrətin hədisləri, əməlləri, davranışları və s.). Lakin bu iki mənbədə dərk etmə və bilik vasitələri ağılın tətbiqi və düşüncənin istifadəsidir ki, məhz bu vasitələr ictihad qapısını açır və bir çox fikirlərə, fərqli nəticələrə imkan yaradır. Dini mətnlərdən (ayə və hədislərdən) bu kimi fərqli nəticə çıxarma halları həzrət Rəsulullahın (s) dövründə də olmuş və

---

[120] Əbdürrəhman ibn Xəldun, "İbn Xəldunun müqəddiməsi", səh.543, dördüncü çap, 1978.

o Həzrət buna etiraz etməmişdir. Çünki bunun baş verməsi təbiidir. Rəsulullah (s) müsəlmanlara Bəni-Qüreyzə yəhudilərinin üzərinə getməyi əmr edərkən carçısına camaata belə çağırış etməyi göstəriş verdi: *"Eşidib itaət göstərən hər kəs əsr namazını ancaq Bəni-Qüreyzənin məskəninə çatdıqdan sonra qılsın!"* Bu çağırış zöhr vaxtının daxil olmasından sonra edildi. Əsr namazının yalnız Bəni-Qüreyzənin məskəninə çatdıqdan sonra qılınmasına dair göstərişi eşidən səhabələr Peyğəmbərin (s) bu əmrini anlamaqda iki dəstəyə bölündülər. Belə ki, onlar hələ Bəni-Qüreyzənin məskəninə gedərkən yolda artıq əsr namazının vaxtı daxil oldu və buna görə də Peyğəmbər əmrinin işığında bu mövzunu müzakirə etdilər. Səhabələrin bir dəstəsi namaz vaxtının gecikdirilməsinin yolverilməz olması rəyini irəli sürərək onu Bəni-Qüreyzənin məskəninə çatmamış qılmağın labüdlüyünü bildirdi. Bu dəstə Peyğəmbərin "hər kəs əsr namazını yalnız Bəni-Qüreyzənin məskəninə çatıqdan sonra qılsın" əmrini o Həzrətin namazı gecikdirməyi vurğulaması kimi deyil, Bəni-Qüreyzənin üzərinə yürüşü tələsdirməyə təşviq etməsi mənasında izah etdilər. Ona görə də bu dəstə əsr namazını qeyd etdiyimiz izahlarına əsaslanaraq vaxtında, Bəni-Qüreyzənin məskəninə çatmamaış elə yolda olarkən qıldılar. Səhabələrin digər dəstəsinə gəlincə, onlar Peyğəmbərin əmrini sözbəsöz, buyurduğu kimi yerinə yetirməyin, əsr namazını, hətta əsas vaxtının bitəcəyi gün batandan sonraya qalsa belə, Bəni-Qüreyzənin məskənində qılmağın vacibliyini bildirdilər. Və həqiqətdə də bu dəstədən olan səhabələr həmin gün əsr namazını Bəni-Qüreyzənin məskənində, gün batandan sonra qıldılar. Onlar bu addımın Peyğəmbər əmrinin açıq şəkildə bildirdiyinin yerinə yetirilməsi olduğuna inandıqları üçün bunu etdilər. Hər iki dəstənin etdiyi Peyğəmbərin qulağına çatdıqda heç birini qınamadı və kimsəni də əməlinə görə danlamadı. Əksinə hər iki tərəfi, həm əsr namazını hələ yolda ikən öz vaxtında qılanları, həm də onu gecikdirib Bəni-Qüreyzənin məskənində gün batandan sonra qılanları normal qəbul etdi.[121]

Beyhəqi bu hadisəni nəql edərək yazır ki, Rəsulullah (s) səhabələrinə buyurdu: *"Sizə əmr edirəm ki, Bəni-Qüreyzənin məskəninə çatanadək əsr namazını qılmayasınız".* Onlar oraya çatmazdan əvvəl isə gün batdı. Belə olduqda müsəlmanların bir hissəsi: *"Rəsulullah namazı saxlamağınızı*

[121] Muhəmməd Əhməd Başmil, "Böyük yürüşlər" ensiklopediyası, c.4, səh.147, Qahirə, əs-Sələfiyyə mətbəəsi, 1986.

*qəsd etməmişdi",* - deyib namazı qıldılar. Digərləri isə dedilər: *"And olsun Allaha ki, biz Rəsulullahın əmrinə əməl edirik, bizim heç bir günahımız yoxdur".* Beləliklə bir dəstə imanla və Allahın savabına ümid bəsləyərək namazı qıldı, digər dəstə də imanla və Allahın savabına ümid edərək namazı saxladı və Rəsulullah da heç birini qınamadı.

Müasir sələfi hədis alimi Şeyx Mühəmməd Nasiruddin Əlbani Şeyx Mühəmməd Ğəzalinin "Fiqh əs-siyrə" kitabındakı hədislərdən çıxarış edərkən bu rəvayətə belə bir haşiyə yazmışdır: *"Bu hədis səhihdir, onu Beyhəqi "Peyğəmbərliyin dəlilləri" kitabında Übeydullah ibn Kəabin və Aişənin hədisindən nəql etmişdir. Həmçinin, Hakim Nişapuri də bu hədisi ondan nəql etmiş və onu iki şeyxin (Buxari və Müslimin) şərtlərinə əsasən səhih hesab etmiş və Zəhəbi də onunla razılaşmışdır".*[122]

Seyid Möhsün Əmin bu hadisəni qeyd etdikdən sonra ardınca aşağıdakı sözləri yazır: *"Deyərdim ki, Həzrətin (s) məqsədi onları Bəni-Qüreyzənin üzərinə getməyə tələsdirmək və əsr namazını çatıb orada qılmaları idi. Rəsulullah heç də hansısa bir səbəbdən gecikəcəkləri təqdirdə əsr namazının onlardan yalnız Bəni-Qüreyzənin məskənində qəbul olunacağını bildirmək istəmirdi. Görünür əsr namazını qılmayanlar məhz belə zənn etmişdilər və buna görə də üzrlü idilər".*[123]

Peyğəmbərin mübarək sünnəsinə gəlincə, hədislərin dəqiqləşdirilməsi və qəbul edilməsi ilə bağlı fikir ayrılığı mövcuddur. Ola bilər bir səhabə, tabein (səhabələri görmüş insan) və ya fəqih (İslam qanunvericiliyi üzrə mütəxəssis) hansısa bir Peyğəmbər hədisini əldə edib onun mənasını götürsün, amma başqaları həmin hədisi əldə edə bilməsin. Habelə hədisin ravilərindən hansısa birinə qarşı olan mövqelər də müxtəlif ola bilər. Belə ki, bəziləri onu etibarlı sayıb nəql etdiyi hədisə əməl etdiyi halda digərləri onun inanılmış şəxs olmadığını hesab edə bilər. Həmçinin, ictimai və siyasi vəziyyətin rəylərin formalaşması, qəbul edilməsi və yayılmasına təsiri də istisna edilmir.

Bütün bu və digər səbəblərə görə İslam ümmətində fərqli ideoloji məktəblər və fiqhi məzhəblər yarandı. İdeoloji sahədə cəbrilik və qədrilik məktəbi, eləcə də mötəzilik, əşərilik, murciə və məturidilik məktəbləri meydana çıxdı. Fiqh sahəsində isə mərkəzi Hicaz olan əhli-hədis məktəbi və mərkəzi İraq olan əhli-rəy məktəbi mövcud idi. Sonra ümmət alimlərinin müxtəlif istiqamətləri daxilində fərqli fiqh məzhəblərinin sayı

---

[122] Mühəmməd Ğəzali, "Fiqh əs-siyrə", səh.336, səkkizinci çap, Qahirə, əl-Kutub əl-hədisə mətbəəsi.
[123] Seyyid Möhsün Əmin, "Əəyan əş-şiə, c.1, səh.266, Beyrut, ət-Təaruf mətbəəsi, 1986.

artdı. Artıq sünnülərin də, şiələrin də, xəvariclərin də məzhəbləri oldu. Beləcə, məzhəb plüralizminin toxumları ümmətin daxilində ilk dövrlərdə əkildi və fikir ayrılığı müsəlmanların həyatına erkən daxil oldu. Lakin fiqh və düşüncə fərqliliyi heç də davamlı olaraq fikir ayrılığına və parçalanmaya səbəb olmurdu, əksinə ilkin mərhələlərdə və ümmətin həyatının parlaq dövrlərində fikirlərin birləşib daha da inkişaf etməsi və İslam fiqhinin və düşüncəsinin zənginləşməsi üçün bir meydan idi. Səhabələr müəyyən məsələlərdə fikir ayrılığı ilə üzləşdikdə və eləcə də məzhəblərin imamları fikir ayrılığına düşdükləri zaman bu, aralarındakı qarşılıqlı münasibətlər sayəsində obyektivlik və tolerantlıqla nəticələnirdi. Belə ki, onlar ya həqiqət və höccət sabit olduqda öz rəylərindən əl çəkib qarşı tərəfin rəyini qəbul edir, ya da bu olmadıqda müxaliflərini dəyərləndirə və onun rəyinə hörmət edərək öz rəylərində qalırdılar. Buna görə də fiqh və düşüncə məktəblərinin, cərəyanlarının çoxluğu sayəsində müsəlmanlar geniş ideoloji və fiqhi sərvətə sahib oldular. Şeyx Mühəmməd Əbu Zəhrə deyir:

*"Bu fikir ayrılığı İslam elmini sərtliyə, quruluğa yol vermədən, səylə izləyərək qələmə alan istedadları üzə çıxartdı və onlar özlərindən sonra fiqhi tədqiqatlardan ibarət zəngin bir irs qoydular. Bunun bəşər aləminin ən böyük fiqhi sərvəti olduğunu söyləsək, yəqin ki, nə mübaliğəyə yol vermiş, nə də həddi aşmış olarıq. Avropalılar bu sahədə ən böyük sərvətin Roma qanunları olduğunu iddia edə bilər, amma müqayisə etsək, romalılardan gələnlər fəqihlərin qoyub getdikləri fiqhi qaynaqların və mətləblərin heç onda biri qədər də deyildir. Bu (fəqihlərin qoyduğu irs), bəşəriyyət özü üçün yaxşılıq istədiyi, ona faydalı olan və onu yüksəldən şeylərə meyl etdiyi təqdirdə, onun bu ehtiyacını qarşılayacaq qismən həll yollarını və ümumi qaydaları özündə ehtiva edir".*[124]

Müxtəlif məzhəblərin imamları və alimləri arasındakı əlaqə elmi və qarşılıqlı hörmət əlaqəsi idi. Zeydilik təriqətinin nisbət verildiyi İmam Zeyd ibn Əli ibn Hüseynin (İmam Hüseyn (ə)-ın nəvəsi) öz dövrünün alimləri ilə sıx əlaqələri vardı və onlar onun elmindən bəhrələnirdilər. Vasil ibn Əta onunla əlaqə saxlayır və ondan bilgilər əldə edirdi. Əbu Hənifənin də Zeydlə əlaqəsi vardı və ondan bilgilər alırdı. İmam Zeydin tərəfini saxlayan Əbu Hənifə onun təəssübünü çəkir və onun Əməvi

[124] Muhəmməd Əbu Zəhrə, "İslam məzhəblərinin tarixi, səh.302, Qahirə, əl-Fikr əl-ərəbi mətbəəsi, 1989.

qoşunu ilə döyüşə çıxması barədə deyirdi: *"Onun bu (savaşa) çıxması Rəsulullahın (s) Bədr savaşına çıxmasına bənzədi".*[125]

Hənəfi məzhəbinin imamı İmam Əbu Hənifə Əli (ə)-ın nəslindən olan şiə imamları ilə görüşmüş və onun qəlbində onların xüsusi yeri olmuşdur. Əhli-beytə açıq-aydın məhəbbəti olsa da, onların tərəfdarı olmadan elmlərindən bəhrələnmişdir. Zeyd ibn Əlinin, Mühəmməd Baqir və oğlu Cəfər Sadiqin, Abdullah ibn Həsən ibn Həsənin elmindən bəhrələnmiş, lakin düşüncəsində onların və ya onlardan hansısa birinin davamçısı olmamışdır.[126]

İmam Əbu Hənifənin belə dediyi rəvayət olunur: *"Əbu Cəfər Mənsur (Abbasilərin ikinci xəlifəsi 714-775) mənə dedi: "Ey Əbu Hənifə, camaat Cəfər ibn Mühəmmədə (İmam Cəfər Sadiqə) heyran olmuşlar, onun üçün (onu camaatın gözündən salmaq üçün) çətin suallar hazırla". Mən də onun üçün 40 dənə sual hazırladım".*

Beləliklə, iki imam Hiyrədə (İraqın mərkəzinin cənubunda yerləşən şəhər) Mənsurun hüzurunda görüşdülər. Əbu Hənifə bu görüş haqqında deyir:

*"Onun (Mənsurun) yanına gəlib içəri daxil oldum. Cəfər ibn Mühəmməd onun sağında əyləşmişdi. Bu mənzərəni gördüyüm an Əbu Cəfər Mənsurdan çox Cəfər Sadiqin heybəti məni bürüdü. Salam verdim və o, (xəlifə) mənə işarə etdikdə oturdum. Sonra mənə üzünü tutub dedi: "Ey Əbu Hənifə, suallarından ver Əbu Abdullaha (İmam Cəfər Sadiqə). Mən də sualları verməyə başladım. O, (İmam Sadiq) suallarımı bu şəkildə (geniş və hərtərəfli) cavablandırırdı: "Siz belə deyirsiz, Mədinə əhli belə deyir, biz də belə deyirik, (sualın sahibi) ola bilər bizim dediyimizə tabe olsun, ola bilər onların dediyinə tabe olsun, ola bilər də heç birimizlə razılaşmasın". Qırx sualın hamısı bitənədək belə davam etdi və o, bir sualda belə yanlışlığa yol vermədi".* Sonra Əbu Hənifə sözünü belə tamamlayır: *"İnsanların ən elmlisi onların arasındakı ixtilafları da (fərqli rəyləri də) biləndir".*[127]

Maliki məzhəbinin imamı İmam Malik ibn Ənəs də İmam Cəfər Sadiqin məclislərində iştirak edərdi. Əl-Mədarik kitabında onun dilindən bu sözlər qeyd olunmuşdur: *"Cəfər ibn Mühəmmədin yanına gedərdim. O, çox zarafatcıl və gülərüz idi. Yanında Peyğəmbər xatırlandıqda*

---

[125] Öncəki mənbə, səh.45.
[126] Eyni mənbə, səh.361.
[127] Eyni mənbə, səh.693.

*(üzünün rəngi) göyərər və saralardı. Bir müddət onun yanına gedib gəldim. Onu ancaq üç vəziyyətdə görürdüm: ya namaz qılan, ya oruc tutan, ya da Quran oxuyan vəziyyətdə. Rəsulullahdan (s) yalnız təharətli (dəstəmazlı və qüsllü) halda hədis söyləyərdi. Ona aid olmayan şeylərdən danışmazdı. Allahdan qorxan ibadətkar zahid alimlərdən idi. Onu hər dəfə görəndə döşəkcəni öz altından götürüb mənim altıma qoyar və bu işin fəzilətlərini sadalayardı..."*[128]

Fikir və fiqh məktəblərindəki çoxluq və fərqlilik, alim və fəqihlərin fərqli fikirləri dinin anlayış və hökmlərinin öyrənilməsində ictihad prinsipinin təbii nəticəsidir. Əgər ümmətin əksər alimlərinin bütün zaman və məkanlarda zəruri və müsəlmanlar üçün vacib-kifai[129] hesab etdiyi ictihad prinsipi ehtiyac duyulan və vacib bir prinsipdirsə, o zaman onun nəticələri də məqbul sayılmalıdır. Tədqiqatçılardan biri deyir:

*"İctihad ilahi vəhyin mənbələrindən, Quran bəlağəti və bu bəlağətin Peyğəmbər tərəfindən açıqlanmasından şəriət hökmlərinin bir hissəsini çıxarmaq üçün bir vasitədir və İslam şəriətinin yaşaması, zaman və məkanın, maraqların, adət və ürflərin inkişafına cavab verə bilməsi ondan asılıdır. Suyutinin (849-911 h.q.) sözləri ilə desək, "hər bir dövrdə qabiliyyətli insanların üzərinə düşən vacib vəzifələrdən biridir və hər bölgədən bir dəstə insanın bunu etməsi hər zamanın insanları üçün bir vəzifədir". Və bu vacib ictihad prinsipi ictihadın təbii nəticəsi olan plüralizm və ixtilaflar olmadan baş vermir...*

*Müctəhidlərin çoxluğunun ictihadlarda plüralizm, fərqlilik və ixtilafla nəticələnməsi qaçılmazdır. Hansı ki, bu ictihadların məzhəblərdə, məktəblərdə və cərəyanlarda aydanlaşması mümkündür. Odur ki, ictihad, elə ictihadın inkişafı üçün katalizatora çevrilən plüralizmin bir səbəbidir. Müctəhidin ictihadı ancaq onun özünə və ona təqlid edənlərə vacib olduğu və digər müctəhidlərə və onlara təqlid edənlərə aid olmadığı üçün bu qayda İslamın düşüncə qaydalarından biri kimi dini düşüncədəki plüralizm prinsipinin ən dəqiq və ən aydın şəkildə leqallaşdırılmasına çevrilmişdir".*[130]

Və beləcə ümmətin imamlarının və islahatçı fəqihlərinin davranışları plüralizmə, fikir və məzhəblərin fərqliliyinə hörmət prinsipinə

[128] Öncəki mənbə, səh.397.

[129] Vacib-kifai - hamıya vacib olan, amma bir və ya bir neçə nəfər tərəfindən yerinə yetirilməsi kafi sayılaraq qalanların öhdəsindən götürülən vacib hökm (müt.).

[130] Mühəmməd İmarə, "İctihad vəzifəsi plüralizmin və fikir ayrılığının leqallaşdırılmasıdır", "əl-Həyat" qəzeti, 27.10.1417 h.q.

əsaslanırdı. İmam Cəfər Sadiq şagirdlərinə əmr edərdi ki, şəriət hökmlərini insanlara söyləyərkən, hökmü soruşan şəxs başqa məzhəblərdən birinin mənsubu olduğu təqdirdə, o məzhəblərin rəyini deməyi nəzərdən qaçırmasınlar. İnsanlara şəriət hökmlərini çatdırmaq üçün mütəmadi olaraq mübarək Peyğəmbər məscidində oturan xüsusi şagirdlərindən biri Əbban ibn Təğluba belə buyurmuşdu: *"Onlara (digər məzhəblərin mənsublarına) öz məzhəblərinə aid olduğunu bildiyin hökmləri söylə".*[131]

Maliki məzhəbinin imamı İmam Malik ibn Ənəs plüralizmi etiraf etmək və onu qorumaq üçün öz təlim və fikirlərinin bütün müsəlmanalara tətbiq edilməsindən imtina etdi. Belə ki, xəlifə Harun ər-Rəşid İmam Malikin əl-Muvatta kitabını ümumi bir qanuna çevirmək və onu bütün insanlara öyrətmək məqsədilə bir nüsxəsini Kəbədən asmaq istəsə də, İmam Malik buna razı olmadı.[132]

**Məsələnin digər tərəfi**

Bütün bunlar İslam tarixindəki bəzi parlaq işartılar idi. Cəmiyyət İslam dəyərlərinə sadiq qaldığı və onun təlimlərini, ədəb qaydalarını tətbiq etdiyi zaman müxtəlif irqi, dini və ya məzhəbi mənsubiyyətlər və istiqamətlər arasında uyğunluq, əməkdaşlıq və birgəyaşayış vəziyyəti hökm sürür. Lakin təəssüf ki, ümmətin tarixinin ağrı və təəssüf doğuran digər tərəfi də var. Tariximizin bu üzündə fərqlilik hallarının rədd edilməsinə görə və bir çox hallarda yanlış haqq qazandırıcı fikir və təkliflərlə müşayiət olunan bir hegemonluğun tətbiqinə cəhd göstərilməsi üzündən insanların öldürüldüyü, toxunulmazlıqların aradan getdiyi və hüquqların pozulduğu kor-təbii təəssübkeşlik və düşmənçilik halları əks olunmuşdur. Qeyri-müsəlmanlar İslam tarixində bəzi hallarda və dövrlərdə bir qədər haqsızlığa məruz qaldılar və bəzi müsəlman rəhbərlər tərəfindən ərəb olmayan məvalilərə[133] qarşı zilmlər də edildi. Fikir və məzhəb fərqliliyi İslam cəmiyyətinin daxilində faciələrə və dəhşətli düşmənçiliklərə səbəb oldu. Tariximizin və irsimizin İslamın baxışına və insanların birgəyaşayış tərzinə tam şəkildə uyğun olduğunu iddia etməyimiz mümkün deyildir. İslamın ruhuna və yanaşmasına uyğun olan o parlaq epizodlarla yanaşı təəssüf ki, İslamın tolerantlığı və ədalətinə zidd olan ağrılı təcavüzkar əməllər də var idi. Bu hallar, cəmiyyət haqsız

---

[131] Seyyid Əbülqasim əl-Xoyi, "Muucəm rical əl-hədis, c.1, səh.149, dördüncü çap, 1410 h.q.

[132] Əbu Zəhrə, daha öncə qeyd olunmuş mənbə, səh.430.

[133] Məvali – köləlikdən azad edilən və əməyindən istifadə olunan qeyri-ərəblər (müt.).

bir tərəfin hakimiyyətə yiyələnməsi və ya insanlar arasında nifrət və fitnə yayan cahil və ya qərəzli qüvvələrin ortaya çıxması ilə Allahın yolundan uzaqlaşdıqca baş verirdi. İndi bizim vəzifəmiz İslamın həqiqi dəyərlərini aydınlaşdırmaq və irsimizin və tariximizin müsbət praktiki tərəflərindən faydalanmaqdır ki, reallığımızı islah edə və cəmiyyətlərimizin üzləşdiyi ciddi problemlərin qarşısını ala bilək. Üçüncü dünya ölkələrinin üzləşdiyi müharibələr və böhranlar, inkişaf etməkdə olan xalqların əziyyət çəkdiyi gerilik və problemlər daha çox müxtəlif mənsubiyyətlər və cərəyanlar arasında hökm sürən qarşıdurma mühitindən və qarşı tərəfi tanıma, qəbul etmə, onunla birgə yaşama və sərbəst, ləyaqətli bir həyat qurmaqda iştirak etmə prinsiplərinə əsaslanan ədalətli bir sosial sistemin çatışmazlığından qaynaqlanır.

# Sonluq

**Təəssübkeşlik dövründən birgəyaşayış dövrünə keçid... Kimin məsuliyyətidir?**

İslamın, din və məslək baxımından fərqli olsa da, qarşı tərəfi qəbul etmək, tanımaq və onunla birgə yaşamaqla bağlı baxışının aydın olmasına, bu dövrdə İslam ümmətini əhatə edən problem və təhlükələrin böyüklüyünə və eləcə də liberallıq və elmi inkişaf əsrində yaşamağımıza rəğmən, hələ də İslam ümmətimizin varlığını içdən yeyən, yüksəlişini əngəlləyən, parçalanmasını davam etdirən və birləşməsinin qarşısını alan mənfur bir xəstəlik var olmaqdadır. Bu təhlükəli xəstəlik məzhəb təəssübkeşliyidir. Bu səbəbdən bir çox ölkələrdə və regionlarda ümmətin ab-havasına məzhəb gərginliyi hakimdir. Həzrət Rəsulullah (s) bu xüsusda buyurub:

*"Hər kimin qəlbində bir xardal dənəsi qədər təəssübkeşlik olarsa, qiyamət günü Allah onu məhşər ayağına cahiliyyət ərəbləri ilə birgə gətirəcəkdir".*[134]

Başqa bir hədisdə isə Həzrət (s) buyurub: *"Təəssübkeşliyə çağıran da, təəssübkeşlik naminə döyüşən də və təəssübkeşlik uğrunda ölən də bizdən deyildir".*[135]

İslam dünyasının bir sıra bölgələrinin əhalisində məzhəb fərqliliyi mövcuddur. Lakin onlar eyni dinin, eyni vətənin və eyni millətin insanları olduqları halda bir arada yaşaya, əməkdaşlıq edə və bir-birilə uyğunlaşa bilmirlər. Aralarında qarşıdurma və ixtilaf yaranır, məzhəb təqibləri və məzhəb ayrı-seçkiliyi halları baş verir. Məzhəb fərqliliyi buna əsas verirmi? İslam məzhəbləri nə qədər çox olsa da, hamısı bir çeşmədən su içir. Həmin çeşmə kitab (Quran) və sünnədir. Müştərək vahid əsaslar üzərində birləşir. Bu əsaslar isə Allaha, Mühəmməd peyğəmbərə (s) və axirətə imandır. Mənsubları bir qibləyə - müqəddəs Kəbəyə doğru yönəlir. Hamısı namaz qılır, zəkat verir, beytülhərama həccə gedir, ramazan ayında oruc tuturlar. Həm də onlar bu məzhəb çoxluğunu sələflərindən miras almış, onu nə bu dövrdə, nə də öncəki əsrlərdə icad və ya ixtira etməmişlər.

---

[134] Mühəmməd ibn Yaqub əl-Kuleyni, "əl-Usul min əl-kafi", c.2, səh.308, üçüncü çap, Tehran, 1388 h.

[135] Hafiz Əbu Davud əs-Səcistani, "Əbu Davudun sünəni", c.2, Ədəb bölməsi, təəssübkeşlik haqqında fəsil, 5121-ci hədis, birinci çap, Beyrut, əl-Cinan mətbəəsi, əl-kutub əs-səqafiyyə müssisəsi, 1988.

Elə isə bəs ixtilaf və qarşıdurmaya əsas verən nədir?

Birincisi: Bu, İslamın baxışını və təlimlərini düzgün anlamamaqdandır.

İkincisi: Bu, eqoistlik, şəxsi maraq və radikal təəssübkeşlikdən qaynaqlanan pis əxlaqdan irəli gəlir.

Üçüncüsü: Bu, həm xarici, həm də daxili düşmənlərin təfriqə alovunun üzərinə yağ tökmək, fitnə toxumu səpmək və ixtilaf yaymaq cəhdlərinin nəticəsidir.

**Birgə yaşamaq bir seçimdir**

Müsəlman vətəndaşların məzhəb mənsubiyyəti fərqli olduqda, bu fərqlilik və çoxluqla mübarizə aparmaq üçün onların qarşısında aşağıdakı üç variantdan biri dayanır:

Birinci variant: məcbur etməyə çalışmaq. Yəni hər məzhəbin davamçılarının öz məzhəblərini başqalarına qəbul etdirməyə, başqalarını onu mənimsəməyə və o yola sitayişə məcbur etməyə çalışmaları. Çünki hər bir məzhəbin davamçıları öz məzhəblərinin doğruluğuna inanır və onu yaymağı, başqalarına qəbul etdirməyi özlərinə vəzifə bilirlər. Bu variant şəriət baxımından problemlidir. Çünki inanc və sitayişi məcbur etmə yolu ilə tətbiq etmək doğru deyildir: ***"Dində məcburiyyət yoxdur".***[136] Əksinə bu, şəxsi qənaət və daxili istəklə könüllü şəkildə olmalıdır. Necə ki, şəriət müsəlmanın başqalarını etiqad bəsləmədikləri və inanmadıqları bir şeyə məcbur etməsinə icazə vermir. Allah-təala Öz Peyğəmbərinə (s) belə bu haqqı verməmiş və ona sadəcə belə buyurmuşdur:

***" (Ya Peyğəmbər! Mənim bəndələrimə) öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən! Sən onların üzərində hakim deyilsən!"***[137]

***" İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?! (Bu sənin işin deyildir. Sənin vəzifən ancaq İslamı təbliğ etməkdir)."***[138]

Praktikada da fikir və inancları məcbur tətbiq etməklə bağlı bütün təcrübələr uğursuz olmuşdur. Çünki insanlar öz dinlərindən və məzhəblərindən mübarizə və qarşıdurma vəziyyətində daha çox yapışırlar. Kommunizmin hökm sürdüyü ölkələrdəki müsəlman xalqların gerçəkliyi

---

[136] əl-Bəqərə, 256.

[137] əl-Ğaşiyə, 21,22.

[138] Yunus, 99.

buna ən aydın sübutdur. Ayrıca, bu cür cəhdlər tariximizin bəzi dövrlərində də meydana gəlmişdir. Belə ki, bəziləri əksəriyyəti təmsil etdikləri və ya güc və qüdrətə sahib olduqları üçün öz fikirlərini, yaxud məzhəblərini məcbur qəbul etdirməyə çalışdılar, lakin bu cəhdlərin təsiri müvəqqəti və məhdud oldu.

İkinci variant: düşmənçilik və qarşıdurma vəziyyəti yaratmaq. Yəni hər məzhəbin tərəfdarlarının öz məzhəblərinin səngərində möhkəmlənməsi və üzvlərini başqa məzhəbə qarşı səfərbər etməsi. Nəticədə gərginlik və düşmənçilik vəziyyəti hökm sürər, uzaqlaşma və ixtilaf yaranar, güclü tərəf digər tərəfə zülm edər və o da öz növbəsində özünü müdafiə etməyə və qarşı tərəfdən qisas almağa çalışar. .. Və beləcə cəmiyyət vətəndaş müharibəsilə nəticələnə biləcək daxili qarşıdurma bataqlığına sürüklənər. Bu halda hamı ziyan görər və həm İslamın, həm də ölkənin düşmənləri üçün bu qarşıdurma vasitəsilə öz planlarını və məkrli niyyətlərini həyata keçirmək fürsəti yaranmış olar. Livanda baş vermiş kədərlə xatırlanan vətəndaş müharibəsi və hazırda Pakistanda cərəyan edən qanlı məzhəb hadisələri bu ikrah doğuran seçimin acı nümunəsindən başqa bir şey deyildir.

Üçüncü variant: hər bir tərəfin digərinin öz əqidəsinə və inancına riayət etmək, dini ayinlərini yerinə yetirmək və məzhəbinin fiqhinə əsasən işləmək hüququnu tanıdığı və hər kəsin bərabər hüquq və vəzifələri olan vətəndaşlar kimi davranaraq ümumi maraqları təmin etmək və ümumi təhlükələrin qarşısını almaq üçün əməkdaşlıq etdiyi birgəyaşayış. İslamın əmr etdiyi və onun tolerant təlimlərinin dəvət etdiyi məhz budur. Bu, İslamın imamlarının, müsəlmanların müdrik və sədaqətli şəxsiyyətlərinin yanaşmasıdır. Ağıl və sağlam məntiqin çağırışı da, eyni yaşayış şəraitində və bir vətən daxilində ortaq olmağın təbii tələbi də budur. İmam Mühəmməd Baqir (ə) da eynilə bu məsələyə işarə edərək buyurmuşdur: *"İnsanların xeyrinə olan (yaşayış) birgə yaşayışdır".*[139]

**Kimin məsuliyyətidir?**

Cəmiyyətlərimiz mədəni birgəyaşayış səviyyəsinə necə yüksələ bilər? İxtilaf, parçalanma, uzaqlaşma və uyğunsuzluq yaradan amilləri necə aşa bilərik? Fərqliliyimiz və mənsubiyyətlərimizin çoxluğu təcrübələrimizi necə zənginləşdirə bilər və fikir və düşüncələrimizi necə

---

[139] Mühəmməd Baqir Məclisi, "Bihar əl-ənvar", c.71, səh.167, Beyrut, "Ərəb irsinin dirçəldilməsi" mətbəəsi, 1983.

yetişdirə bilər? Müsəlman ölkələrindəki hər bir cəmiyyət üçün və bütün ümmət səviyyəsində milli İslam birliyi necə gerçəkləşə bilər?

Məsuliyyət hər bir şəxsin üzərinə düşür. Mübarək Peyğəmbər hədisində buyurulduğu kimi: *"Hər biriniz rəhbər və hər biriniz öz rəiyyətinizin məsuliyyətini daşıyırsınız".* İlk növbədə İslam ölkələrindəki rəhbərlər xalqlarını haqq və ədalət prinsipləri əsasında birləşdirmək, onların arasında birgəyaşayış və uyğunluq mühitini təmin etmək, hər hansı bir milli və məzhəb ayrı-seçkiliyinin qarşını almaq üçün böyük bir məsuliyyət daşıyırlar. Həzrət Rəsulullahın (s) belə buyurduğu rəvayət olunur: *"Ən yaxşı rəhbər ixtilafda olanları birləşdirən, ən pis rəhbər isə birlikdə olanları ayırandır".*[140]

Din alimlərinin birlik və barışıq çağırışında, insanların millətçilik şovinizmindən və məzhəb qarşıdurmalarından çəkindirilməsində ən vacib rolu oynamaları umulur. Din aliminin məzhəb təəssübkeşliyi ruhiyyəsini saxta zəif əsaslandırmalarla alovlandırmaq rolunu oynaması qətiyyən yolverilməzdir. Çünki Əmirəlmöninin Əli ibn Əbu Talib (ə)-ın buyurduğu kimi: *"Allah-təala nə keçənlərdən, nə də qalanlardan kimsəyə təfriqəni (firqələrə parçalanmanı) xeyirli etməmişdir".*[141]

İmam Cəfər Sadiq (ə) isə buyurmuşdur: *"Dininizə görə insanlarla düşmənçilik etməyin. Həqiqətən, düşmənçilik qəlbi xəstə edər".*[142]

Düşüncə və mediya adamları öz qələmlərini, səylərini tolerantlıq və yaxınlaşma ruhunu yaymağa, düşmənlərin bəslədiyi və cəhalətlə axmaqlığın dirçəltdiyi inadkarlıq və ekstremizm meylləri ilə mübarizə aparmağa yönəltməlidirlər.

Nəhayət, hər bir şüurlu vətəndaş düzgün davranışı və digər vətəndaşlarla sağlam münasibəti ilə islami milli birlik yaratmaqda öz məsuliyyətini üzərinə götürməlidir. Qarşıdurma və çəkişmələr vətənin gələcəyini təhdid edir və xalqın mənafeyinə zərər verir. Əzəmətli Allah doğru buyurmuşdur: ***" Bir-birinizlə çəkişməyin, yoxsa zəifləyər və gücdən düşərsiniz. Səbr edin, çünki Allah səbr edənlərlədir!"***[143]

---

[140] Seyyid Mühəmməd Şirazi, "Müsəlmanları ayağa qaldırmağın yolu", səh.312, yeddinci çap, Beyrut, 1994.
[141] Şərif Rəzi, "Nəhcül-bəlağə, xütbə 176.
[142] Məclisi, daha öncə adı keçmiş mənbə, c.2, səh.133.
[143] əl-Ənfal, 46.

## İstifadə olunmuş mənbələr və istinadlar


1. Qurani-kərim.
2. Seyid Mühsin əl-Əmin, "Əəyan əş-şiə" (Şiələrin görkəmli şəxsləri).
3. İbn Əbülhədid "Nəhcül bəlağənin şərhi".
4. Əbdürrəhman ibn Xəldun, "əl-Müqəddimə".
5. İbn Hişam, "əs-Sirətunnəbəviyə" (Peyğəmbərin (s) tərcümeyi-halı).
6. Hafiz Əbu Davud əs-Səcistani, "Sünən Əbi Davud" (Əbu Davudun qanunları.
7. Şeyx Mühəmməd Əbu Zəhrə, "İslam məzhəblərinin tarixi".
8. Mühəmməd Əhməd Başmil, "Böyük yürüşlər ensiklopediyası".
9. Əhməd Behcət, "Barmaq izləri". "əl-Həyat" qəzeti (London).
10. Əli İzzət Beqoviç, "Şərq ilə Qərb arasında İslam" (ərəb dilinə tərcümə edən: Mühəmməd Yusuf Ədəs).
11. Mühəmməd Xalid Xalid, "Peyğəmbərin ətrafındakı insanlar".
12. Dr. Nayif Xərma, "Çağdaş dilçilik tədqiqatlarına baxış". "Bilik dünyası" silsiləsi.
13. Seyid Əbülqasim Xoi, "Hədis ravilərinin siyahısı".
14. Seyid Mühəmməd Ruhani, "Salehlərin yolu"
15. Şeyx Mühəmməd Reyşəhri, "Mizanul-hikmə".
16. Dr. Vəhbə əz-Zuheyli, "İslam fiqhi və onun dəlilləri".
17. Şeyx Cəfər Sübhani, "Peyğəmbərlər ağasının həyat tarixçəsi".
18. Mühəmməd əs-Səmak, "Hədəf İslamdırmı?" ("əl-Vəy əl-İslami" jurnalında araşdırma).
19. Klod Livi Ştrauss, "İnsanlıq haqqında məqalələr" (ərəb dilinə tərcümə edən: dr. Həsən Qubeysi).
20. Şeyx Mühəmməd Mehdi Şəmsəddin, "İslam siyasi sosiologiyası haqqında".
21. Şeyx Mühəmməd Mehdi Şəmsəddin, "İslamda hökumət və idarəetmə sistemi".
22. Seyid Mühəmməd Şirazi, "Müsəlmanları ayağa qaldırmağın yolu".
23. Suzana, Tarbuş, "əl-Həyat" qəzetində məqalə.
24. Mühəmməd ibn Həsən əl-Amuli, "Vəsailuş-şiə"
25. İbn Həcər Əsqəlani, "əl-İsabə fi təmyiz əs-səhabə" (səhabələri ayırd etməkdə doğru yol).
26. Mühəmməd İmarə, "İctihad vəzifəsi plüralizm və ixtilafın leqallaşdırılmasıdır" ("əl-Həyat" qəzeti).
27. Mühəmməd Ğəzali, "Ərəb millətinin gerçəkliyi".

28. Mühəmməd Ğəzali, “(Peyğəmbərin) həyat tarixçəsinin fiqhi”.
29. Ginnes, “Ginnesin rekordlar kitabı”.
30. Həsən əl-Qabançi, “Hüquq kitabının şərhi”.
31. Baqir Şərif Qərəşi, “İmam Zeynülabidin (ə)-ın həyatı”.
32. Mühəmməd ibn Yaqub əl-Kuleyni, “əl-Üsul minəl-kafi”.
33. Adam Metz, “Hicri dördüncü əsrdə İslam sivilizasiyası”.
34. Mühəmməd Baqir Məclisi, “Biharul-ənvar”.
35. Seyid Mühəmməd Təqi Müdərrisi, “Quran hidayətindən”.
36. Şeyx Hüseyn Əli Müntəzəri, “Fəqihin vilayəti haqqında araşdırmalar”.
37. “Dünya Ərəb Ensiklopediyası”.
38. Mühəmməd ibn Ömər Vaqidi, “Yürüşlər kitabı”.

# Mündəricat

Ön söz ........................................................................................ 3
Müqəddimə .................................................................................. 4
**Birinci fəsil: FƏRQLİLİK QLOBAL VƏ SOSİAL TƏZAHÜRDÜR ......................................................................... 9**
Giriş............................................................................................ 10
Fərdi fərqləndirmə........................................................................ 11
Elm və bilik səviyyəsində fərqlilik ............................................. 12
İqtisadi vəziyyətin fərqliliyi ......................................................... 12
İrqi və milli fərqlilik...................................................................... 13
Dil və danışıq fərqliliyi ................................................................ 14
Dini fərqlilik................................................................................. 18
**İkinci fəsil: FƏRQLİLİK VƏ MÜXTƏLİFLİK İSLAMİ BİR BAXIŞDIR ............................................................................... 23**
Birincisi: İlahi qüdrət və hikmətin təzahürüdür ......................... 24
İkincisi: Fərqliliyin qanuniliyi ..................................................... 26
Üçüncüsü: fərqlilik tanınmaq üçündür........................................ 28
Dördüncüsü: Müsbət rəqabət ....................................................... 30
**Üçüncü fəsil: BİRGƏ YAŞAMAQ METOD VƏ ƏHATƏLİ BİR PROQRAMDIR ................................................................... 35**
Giriş............................................................................................ 36
Birincisi: Müxtəlif tərəflərin hüquq və maraqlarının təmin edilməsi .... 37
İkincisi: Qarşılıqlı hörmət ............................................................ 38
Vətəndaşlar və müxtəlif dinlər...................................................... 40
Bir ümmət və çoxsaylı millətlər.................................................... 46
Sonluq ......................................................................................... 63
İstifadə olunmuş mənbələr və istinadlar ...................................... 67